

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP nümayəndə heyəti AK Partinin IV Fövqəladə Böyük Qurultayında iştirak edib



5

# Azərbaycan Gürcüstan reallıqları yeni müstəvidə



2


SƏS

№ 184 (6867)

10 oktyabr 2023-cü il.

Qiyməti 60 qəpik


# Fələstin-İsrail müharibəsi və dünya nefti



12

## Beynəlxalq elm aləmində böyük nüfuz sahibi - Aida İmanquliyeva



3

## "Beynəlxalq tədbirlərin Şuşada keçirilməsi turizm baxımından əhəmiyyətlidir"




6

## İsrail səfiri: "Siz bizim qəlbimizə toxundunuz, sağ olun!"



3

## XƏBƏRDARLIQ: COVİD infarkt riskini artırır



16

## Naxçıvan görüşü: "Qafqaz evi" və Türk birliyi üçün yeni bünövrə



9

# Azərbaycan Gürcüstan reallıqları yeni müstəvidə







## *PREZİDENT İLHAM ƏLİYEV: "Gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır"*



TƏHLİL

İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İki ölkə arasında diplomatik əlaqələr – 30 il əvvəl 1992-ci ildə qurulub. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı iki xalq arasında münasibətlərin inkişafına yeni imkanlar açdı. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir.

### ENERJİ, NƏQLİYYAT VƏ LOGİSTİKA SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyevin Oktyabrın 8-də Gürcüstana işgüzar səfəri, Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin mətbuata verdikləri bəyanatlar əlaqələrin yüksələn xəttlə inkişafından xəbər verir. Azərbaycan və Gürcüstan bir-biri ilə strateji tərəfdaş olan ölkələr dost ölkədir. Səfər çərçivəsində enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığı nəzərdən keçirilib. Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından biridir və hər il ilk beşlikdə yer alır. Bu il ölkələrarası ticarət həcmi 15 faiz artmışdır. Ötən il də rekord göstəricilərə nail olunub. Dəmir yolları sahəsində də əməkdaşlıq uğurla davam edir. Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. 1998-ci il sentyabrın 7–8-də keçirilmiş Tarixi Böyük İpək yolunun bərpası üzrə Beynəlxalq Konfrans keçirildi, 1998-ci il oktyabrın 7-də Azərbaycanın Gürcüstanla sərhədində yeni körpünün açılışı oldu, 1999-cu il aprelin 17-də isə Bakı-Supsa neft kəməri işə salındı. Ötən dövrdə hər iki ölkənin həyatında tarixi əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft ixrac kəmərinin tikintisi sahəsində intensiv işlər aparılıb. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə bu münasibətlər daha da dərinləşmişdi. Nəhayət, 2005-ci il mayın 24–25-də neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi.

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar. Səfər çərçivəsində təhlükəsizlik məsələləri - həm regionda, həm də qlobal müstəvidə cərəyan edən hadisələr müzakirə olunub. Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və Azərbaycan da öz növbəsində hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir.

### “BİZDƏ HƏM GÜCLÜ SİYASİ İRADƏ VAR, ARTIQ YARADILMIŞ GÜCLÜ İNFRASTRUKTUR VAR”

”Gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta Dəhlizin güclənməsinə xidmət göstərəcək”- deyən Cənab Prezident İlham Əliyev energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün bizi birləşdirən “Yaşıl enerji dəhlizi” layihəsi olduğunu bildirib ”Əminəm ki, ondan sonra biz konkret işlərə start verə bilərik. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, “Yaşıl enerji dəhlizi”, enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcək. Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi layihələr böyük məna daşıyır, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün və biz buna hazırıq. Bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır”.

Göründüyü kimi, dövlətləri tarixi dostluq, mehriban qonşuluq münasibətləri, eləcə də sıx strateji tərəfdaşlıq birləşdirir. Birgə səylərlə əməkdaşlıq daha da yüksək səviyyəyə qaldırır. Dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir.

***Zümrüd BAYRAMOVA***

# Beynəlxalq elm aləmində böyük nüfuz sahibi - Aida İmanquliyeva

***Görkəmli şərqşünas-alim, istedadlı pedaqoq, yeni və müasir ərəb ədəbiyyatının ən nüfuzlu, ən fundamental tədqiqatçılarından olan Aida xanım İmanquliyeva çoxsaylı elmi əsərləri ilə zəngin irsin müəllifinə çevrilib. Bütün varlığı milli kökə, xalqa bağlı şəxsiyyət olan Aida xanımın əsərlərində xalqın maariflənməsi, milli yaddaşın qorunması, tərəqqiyə doğru irəliləməsi kimi nəcib niyyətlər özünün bürüzə verir.***

İncə qəlbə malik insan, gözəl övlad və həyat yoldaşı, fədakar ana Aida İmanquliyeva bir ömür yolunda bu qədər şərəfli, istedad və zəhmət tələb edən adları öz isminin ətrafında birləşdirə bilmişdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Aida İmanquliyeva haqqında belə yazır: "Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir".

Ərəb və Azərbaycan ədəbiyyatları arasında möhkəm körpü yaratmağa, ədəbi xəzinəmizi daha da zənginləşdirməyə xidmət edən elmi fəaliyyəti ilə böyük nüfuz sahibi olmuşdur. Aida İmanquliyevanın elmi fəaliyyətinin maraq dairəsi geniş və çoxşaxəli idi.

Xalqımızın tarixində ilk azərbaycanlı qadın - ərəbşünas elmlər doktoru olan böyük alim Aida İmanquliyeva həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin kökləri ilə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək şərəfli bir ömür yaşamışdır. Bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Onun bütün elmi-bədii yaradıcılığı, ictimai fəaliyyəti böyük istedada malik olduğunu göstərir.

XX əsrdə Azərbaycanın dünya elminə bəxş etdiyi görkəmli simalardan biri - şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın oktyabrın 10-da doğum günüdür. Tərcümeyi-halına nəzər salsaq görərik ki, Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Görkəmli jurnalist, pedaqoq, əməkdar elm xadimi olan atası Nəsir İmanquliyev Azərbaycan mətbuatının bünövrəsini qoyanlardan biri olmuş və uzun müddət "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru işləmişdir.

Aida İmanquliyeva Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil alıb. 1966-cı ildə Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi (1966-1976), Ərəb filologiyası şöbəsinin müdiri (1976-1988), elmi işlər üzrə direktor müavini (1988-1991) vəzifəsini icra edən Aida xanım 1991-ci ildən həmin institutda direktor vəzifəsində çalışmışdır. 1976-1988-ci illərdə, institutun ərəb filologiyası şöbəsinə rəhbərlik etdiyi müddətdə, 10 nəfər ərəbşünas namizədlik dissertasiyalarını müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsinə yiyələnib. Şərqşünaslıq İnstitutunun elmi və ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə, 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir il sonra isə, uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müdafiə edərək, filologiya elmləri doktoru adına layiq görülmüşdür. Beləliklə, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor - qadın olan Aida İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olub. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs deyib. Buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə, ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə, 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir.

### ŞƏRQ ƏDƏBİYYATLARININ GƏLƏCƏKDƏ TƏDQİQİ ÜÇÜN MÜHÜM ZƏMİN

A.İmanquliyeva 1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, Ərəb filologiyası şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət kiçik bir antalogiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş bir çox kitaba ön söz yazmış və xeyli sayda kitabın elmi redaktoru olmuşdur.

Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində (3 monoqrafiya ("Mixail Nuaymə" və "Qələmlər birliyi", "Cubran Xəlil Cubran", "Yeni ərəb ədəbiyyatının korifeyləri" və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da, nəinki ərəb ədəbiyyatının, həmçinin, bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra, elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir.

1964-cü ildə "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək, 1979-cu ildə Moskvada "Vostoçnıy almanax" jurnalında çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri



dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

### ELMİ VƏ İCTİMAİ FƏALİYYƏT

Aida İmanquliyeva 1971-1973 və 1979-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru vəzifəsində çalışıb. "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi" (1982), "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri" (1985), "Şərq filologiyası məsələləri" (1986-1987), "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" (1987), "Xarici Şərqin problemləri: tarix və müasirlik" (1988), "Şərq ədəbiyyatında ənənə və novatorluq" (1988) məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır. A.İmanquliyeva 1987-ci ildə Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və 1983-cü ildən etibarən, sözügedən cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur. Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və digər şəhərlərdə keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. Müasirləri onun haqqında belə yazırdı: "Aida xanım beynəlxalq aləmdə dünyanın görkəmli alimləri tərəfindən bütün şərqşünaslıq mərkəzlərində məhcər ədəbiyyatının ən sanballı tədqiqatçısı kimi qəbul edilir. Onun əsərlərindən tez-tez istifadə olunur, çıxış nöqtəsi kimi ona müraciət edilir və Aida xanımın fikirləri məhcər ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır.

Aida xanımın təşəbbüsü ilə Azərbaycanda simpoziumlar çağırıldı. O, həmin simpoziumların həm təşkilatçısı, həm də əsas məruzəçilərindən biri idi. Bu da Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzundan irəli gəlirdi".

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açmışdır. Dünyasını çox vaxtsız dəyişən görkəmli alimin nəinki şərqşünaslıq, ümumən elm haqqında çox maraqlı və gərəkli fikirləri, planları var idi. Aida xanım öz peşəsinin vurğunu idi. Müasirlərindən biri onun haqqında belə yazırdı: "O, öz səmimi, mehriban ailəsini sevir, övlad qayğısı ilə yaşayırdı. Aida xanım elini, obasını, vətənini sevir, xalqımızı, elmimizi yüksək səviyyəli beynəlxalq konqreslərdə vüqar, şərəf və ləyaqətlə təmsil edirdi".

Bütün bunlarla yanaşı. Aida İmanquliyevanın ailəsi bütün Azərbaycan ailələri üçün nümunədir. Bu gün onun ruhu şaddır, gözəl əməlləri layiqincə davam etdirilir. Azərbaycanımız adını yüksəklərə qaldıran Mehriban xanım Əliyeva kimi övlad bəxş edib. Elmi fəaliyyət və ləyaqətli Ana adı hər zaman yüksək qiymətləndirilir.

***Zümrüd BAYRAMOVA***



## İsrail səfiri: "Siz bizim qəlbimizə toxundunuz, sağ olun!"

Azərbaycandakı bacı və qardaşlarımızın dəstək mesajları bizi heyrətə gətirdi. AZƏRTAC xəbər verir ki, bunu İsrailin ölkəmizdəki səfiri Corc Dik mətbuata açıqlamasında bildirib. "Cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlardan nə qədər mesaj, e-poçt, votsap və zəng aldığımızı saymağı dayandırdım. Səfirliyin darvazası önün gül dəstələrinin düzülməsi isə doğrudan da ürəkaçandır. İsrail xalqı adından Azərbaycan xalqına demək istəyirəm ki, siz bizim qəlbimizə toxundunuz, sağ olun!", - deyə diplomat vurğulayıb.

## "Fransanın iştirakı yalnız gərginliyin yaranmasına təsir göstərə bilər"

"Fransa keçmiş münaqişə vəziyyətində də Azərbaycana qarşı qərəzli mövqe tutması ilə seçilib. Baxmayaraq ki, Azərbaycan Fransa-Azərbaycan münasibətlərinin, əlaqələrinin hər zaman sağlam məcrada inkişafı üçün praktiki addımlar atıb, səmimiyyət nümayiş etdirib. Bunun qarşılığında Fransa təcavüzkar Ermənistana hər zaman dəstək nümayiş etdirib". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu deyib. Onun sözlərinə görə, Fransa regionları keçmiş separatçı rejimlə sıx əlaqələr qurmağa çalışırdı: "Fransa parlamentinin üzvləri Bakının izni olmadan separatçı rejimin mövcud olduğu Azərbaycan ərazilərinə səfərlər edirdilər. Bütün bunlar Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik və Azərbaycanın təhlükəsizliyinə çox ciddi təhdid yaradan separatizmə dəstək kimi qiymətləndirilməlidir. Rəsmi Bakı bununla bağlı aydın mövqeyini sərgiləyib.



Azərbaycan lokal xarakterli antiterror tədbirlərini həyata keçirdiyi zaman da Fransa qərəzli mövqeyindən geri addım atmadı, baş verənləri təhrif olunmuş şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində cənfəşanlıq göstərdi. Bütün bunlar aydın göstərir ki, Fransa bu mövqeyi ilə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesində rol ola bilməz. Fransanın iştirakı yalnız gərginliyin yaranmasına təsir göstərə bilər".

***Səbinə Hüseynli***


СЛОВО і ДІЛО
АНАЛІТИЧНИЙ ПОРТАЛ
УКР РОС

Алієв запропонував Грузії бути посередником мирної угоди Вірменії та Азербайджана

СВІТ
8 жовтня 2023, 19:20

Читать на русском

President.az

**Президент Азербайджану Ільхам Алієв висловив думку, що Грузія могла б стати посередником для укладання мирної угоди між Баку та Єреваном.**

Про це повідомляє інформагентство Азертадж, з посиланням на Алієва під


ЄВРОПЕЙСЬКА ПРАВДА
УКР РУС ENG

Алієв запропонував Грузію для посередництва між Азербайджаном і Вірменією

НЕДІЛЯ, 8 ЖОВТНЯ 2023, 14:14

ПОДІЛИТИСЬ:

Президент Азербайджану Ільхам Алієв під час візиту до Грузії заявив про готовність до укладання мирної угоди між Баку та Єреваном, аби "встановити мир" на Південному Кавказі.

Про це Алієв сказав у Тбілісі на пресконференції з грузинським прем'єром Іраклієм Гарібашвілі, пише "Європейська правда" з посиланням на азербайджанське інформагентство АЗЕРТАДЖ.


УКРІНФОРМ
Мультимедійна платформа іномовлення України

Алієв запропонував укласти мирну угоду з Вірменією у Грузії

08.10.2023 15:43

Президент Азербайджану Ільхам Алієв під час спільної заяви із прем'єр-міністром Грузії Іраклем Гарібашвілі у Тбілісі заявив, що врегулювання відносин Азербайджану та Вірменії могло б відбутися у Грузії.

Як передає Укрінформ, про це повідомляє інформагентство Азертадж.


УКРАЇНСЬКА ПРАВДА
ПІДТРИМАТИ УП

Алієв пропонує Грузії бути посередником між Азербайджаном і Вірменією

"ЄВРОПЕЙСЬКА ПРАВДА", "УКРАЇНСЬКА ПРАВДА" — НЕДІЛЯ, 8 ЖОВТНЯ 2023, 16:17

7198

ІЛЬХАМ АЛІЄВ, ФОТО CONTRIBUTOR/GETTY IMAGES

Президент Азербайджану Ільхам Алієв під час візиту до Грузії висловив думку, що ця країна могла б стати посередником для укладання мирної угоди між Баку та Єреваном.

# "Cənubi Qafqaza sülh lazımdır"

## *Gürcüstanın və Ukraynanın nüfuzlu KİV-ləri Prezident İlham Əliyevin Gürcüstana səfərini geniş işıqlandırıb*

***Prezident İlham Əliyevin Gürcüstana səfəri və Baş nazir İrakli Qaribaşvili ilə görüşü, dövlət və hökumət başçılarının mətbuata açıqlamaları Gürcüstan KİV-lərinin diqqət mərkəzində olub. Geniş oxucu kütləsinə malik interpressnews.ge, ambebi.ge, radiotavisupleba.ge, palitranews.ge, apsny.ge, accent-news.ge, realnews.ge, 24news.ge, netgazeti.ge, primetime.ge, gaxa.ge, aktual.ge, 1tv.ge, qafqaz-turk.com informasiya portallarında, adjaratv.ge, 1tv.ge rustavi2 televiziya kanallarında silsilə materiallar dərc olunub və yayımlanıb.***

Qeyd edək ki, Gürcüstanın İctimai Televiziyası (1tv.ge) ayrı-ayrı materiallarla yanaşı, dövlət və hökumət başçılarının mətbuata açıqlamalarını da birbaşa yayımlayıb.

İnterpressnews.ge portalı Prezident İlham Əliyevə istinadla yazır ki, iki ölkənin enerji, nəqliyyat və digər istiqamətlərdə çoxlu planları var. Prezidentin çıxışından gətirilən sitatda deyilir: "Biz - hər iki lider xalqlar arasında dostluğumuzu və tərəfdaşlığımızı möhkəmləndirmək üçün hər şeyi etmişik və edirik. Bu görüşlər çox tez-tez və ənənəvi xarakter daşıyır, ölkələrimizin birbirinə daha da yaxınlaşmasına, dostluğun möhkəmlənməsinə xidmət edir".

Portalın yaydığı daha bir materialda Prezident İlham Əliyevin Cənubi Qafqazda sülhün bərqərar olması, eləcə də Gürcüstanın vasitəçilik rolu barədə fikirləri yer alıb:"Cənubi Qafqaza sülh lazımdır. Biz hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Necə ki, Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyir. Gürcüstanın Ermənistan-Azərbaycan məsələsində iştirakı zəruridir. Əsrlər boyu xalqlarımız çox mehriban qonşular olub, ətraf mühit çox mehribandır. Bu, Cənubi Qafqaz regionu üçün vacibdir. Ermənistan razılığını bildirsə, biz dərhal Gürcüstanda ikitərəfli və üçtərəfli görüşlərə başlayacağıq".


РБК-УКРАЇНА
RU

Алиев предложил Пашиняну место для подписания мирного договора

ГРУЗИЯ, ВОСКРЕСЕНЬЕ 08 ОКТЯБРЯ 2023 17:06

UA EN RU

Фото: президент Азербайджана Ильхам Алиев и премьер-министр Армении Никола Пашинян (Getty Images)

АВТОР: КАРИНА ЛЕВИЦКАЯ

**Президент Азербайджана Ильхам Алиев во время совместного заявления с премьер-министром**

Ambebi.ge portalında dərc olunan materialda Ulu Öndərin Azərbaycan-Gürcüstan münasibətlərindəki rolu qeyd olunur: "Əfsanəvi şəxsiyyət Heydər Əliyevin Gürcüstan-Azərbaycan münasibətlərində xidmətləri çox vacib və böyükdür". İki ölkə arasında dostluğun təməlinin məhz tarixi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulduğu qeyd edilir.

1tv.ge televiziya kanalının yaydığı xəbərdə Prezident İlham Əliyevə istinadla bildirilir ki, Baş nazir İrakli Qaribaşvilinin rəhbərliyi ilə Gürcüstan inamla inkişaf edir, sosial-iqtisadi inkişaf təmin edilir və bu, ölkə əhalisinin sabitliyinin təminatıdır. Həmçinin bildirilir ki, xalqın hakimiyyətə inamı bunun mənbəyidir. Hökumətin aydın baxışı ölkədə bir çox mühüm layihələrin həyata keçirilməsinə imkan verir. Bu, imkan verir ki, iqtisadiyyat, infrastruktur layihələri inkişaf etdirilsin.

Televiziyanın yayımladığı daha bir xəbərdə regionda mövcud problemlərdən bəhs olunur. Azərbaycan Prezidentinin çıxışından gətirilən sitatda deyilir: "Regionda çətinliklər hələ də qalır, Cənubi Qafqazda sülh hələ tam bərqərar olmayıb, biz İrakli


RU КореспонденТ.net

ДОПОМОГТИ КОРЕСПОНДЕНТУ

СПЕЦТЕМА: ВІЙНА РОСІЇ З УКРАЇНОЮ » НОВИНИ ВСІ ТЕМИ
КИЄВА ВІЙНА В УКРАЇНІ

Алієв запропонував укласти мирну угоду з Вірменією у Грузії

ТЕКСТ: АЛЕНА ШЕВЧУК, 8 жовтня 2023, 16:43

0 0 ЧИТАТИ НОВИНУ РОСІЙСЬКОЮ

Президент Азербайджану Ільхам Алієв

Qaribaşvili ilə bu barədə danışdıq, Cənubi Qafqaza sülh lazımdır.

Bu gün biz Ermənistanla sülh sazişi üzərində fəal işləməliyik. Ümidvaram ki, biz buna nail olacağıq və Gürcüstan, Ermənistan və Azərbaycanın da iştirakı ilə Cənubi Qafqazda qarşılıqlı əməkdaşlığın aparılacağı siyasi mühit və vəziyyət yaradacağıq".

Rradiotavisupleba.ge-nin yaydığı məlumatda deyilir ki, dövlət və hökumət başçılarının görüşündə Ermənistanla Azərbaycan arasında vəziyyətin normallaşması ilə bağlı söhbət olub. Prezident İlham Əliyev deyib: "Qarabağda baş verən ikinci müharibə bizim ərazi bütövlüyümüzün bərpasına gətirib çıxardı, bütün ölkənin suverenliyini bərpa etdi və bu gün biz Ermənistanla sülh sazişi üzərində fəal işləməliyik. Ümid edirəm ki, biz buna nail olacağıq və Gürcüstan, Ermənistan və Azərbaycanın da iştirakı ilə Cənubi Qafqazda qarşılıqlı əməkdaşlığın baş tutacağı siyasi mühit və vəziyyət yaradacağıq".

Palitranews.ge portalı və internet televiziyasının yaydığı xəbərlərdə deyilir ki, görüşdə avtomobil və dəmir yollarının, limanların tikintisini əhatə edən Orta dəhlizin inkişaf strategiyası müzakirə olunub.

Netgazeti.ge portalında da Prezident İlham Əliyevin Gürcüstanın Ermənistanla Azərbaycan arasında vasitəçi roluna üstünlük verməsindən bəhs edilir. Prezident İlham Əliyevin çıxışından gətirilən sitatda deyilir: "Bildiyiniz kimi, bu gün bir neçə ölkə və beynəlxalq təşkilatlar normallaşma prosesində vasitəçi rolundadır. Biz istənilən yardımı qəbul edirik, amma mənim fikrim budur ki, istər tarixi aspektlərdən, istərsə də coğrafi baxımdan ən düzgün seçimdir. Bu vəziyyətdə Gürcüstanın iştirakı lazımdır. Əgər Ermənistan razılıq versə, biz dərhal burada, Gürcüstanda, müvafiq qurumlar vasitəsilə ikitərəfli və üçtərəfli görüşlərə başlayacağıq".

"Ümid edirəm ki, Cənubi Qafqazda Gürcüstan, Ermənistan və Azərbaycanın da iştirakı ilə üçtərəfli əməkdaşlığın baş tutacağı siyasi mühit və vəziyyət yaradacağıq. Bu, enerji, ticarət, sərmayə qoyuluşu və bir çox digər istiqamətlərdə uğurlu əməkdaşlıq olacaq", – deyə materialda vurğulanır.

Digər portallarda da Azərbaycan, gürcü və rus dillərində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından xəbərlər geniş işıqlandırılıb. Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin səfəri və səsləndirdiyi fikirlərlə bağlı Gürcüstan mətbuatında 50-yə yaxın material yayımlanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri və Baş nazir İrakli Qaribaşvili ilə birgə mətbuata açıqlamaları Ukraynanın nüfuzlu KİV-lərinin də diqqət mərkəzində olub. "Ukrinform", "İnterfaks-Ukrayna", "RBK-Ukrayna", "Korespondent", "Ukraynska Pravda", "Yevropeyska Pravda", "Slovo i Dilo" və digər media orqanlarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Ermənistanla bağlı fikirləri oxucuların diqqətinə çatdırılıb.

Dövlətimizin başçısının xüsusilə regionda sülh çağırışı Ukrayna KİV-lərinin diqqət mərkəzində olub. Qeyd olunub ki, rəsmi Bakı beynəlxalq aləmin Ermənistan ilə Azərbaycan arasında gedən normallaşma prosesinə dəstək göstərməsini alqışlayır. Əgər Ermənistan tərəfindən də razılıq olarsa, dərhal Azərbaycanın aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm də üçtərəfli görüşə gedə bilərlər.

# YAP nümayəndə heyəti AK Partinin IV Fövqəladə Böyük Qurultayında iştirak edib



*Oktyabrın 7-də Türkiyənin paytaxtı Ankarada Prezident Rəcəb Tayyib Ərdoğanın Sədrliyi ilə hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) IV Fövqəladə Böyük Qurultayı keçirilib. "Türkiyə yüz ili üçün hər zaman yeni, hər zaman irəli" şüarı ilə keçirilən qurultayda 27 ölkənin siyasi partiyalarının nümayəndələri, bir sıra dövlət və hökumət rəhbərləri, diplomatlar, vətəndaş cəmiyyəti təmsilçiləri iştirak ediblər.*



Qurultayda Azərbaycanı Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı Türkiyə xalqının rifahının yüksəldilməsi, iqtisadi inkişafın təmin olunması, terrorizmə qarşı mübarizə kimi məsələlərə diqqəti yönəldib, verilən bütün vədlərin yerinə yetiriləcəyini vurğulayıb. O, qardaş ölkənin qazandığı nailiyyətlərdən, ”Türkiyə yüz ili” proqramı çərçivəsində qarşıda duran hədəflərdən, istər daxili, istərsə də xarici siyasət sahəsində reallaşdırılması nəzərdə tutulan planlardan ətraflı bəhs edib və perspektivə dair önəmli mesajlar verib.

Qurultayın həm Türkiyə Respublikası, həm də AK Parti üçün faydalı olacağını əminliklə ifadə edən dövlət başçısı 2024-cü ilin mart ayında keçiriləcək bələdiyyə seçkilərinin əhəmiyyətinə toxunub, referendum vasitəsilə konstitusiya dəyişikliyinin zəruriliyini nəzərə çatdırıb.




Prezident Rəcəb Tayyib Ərdoğan yenidən yekdilliklə Ədalət və İnkişaf Partiyasının Sədri seçilib. Səsvermə nəticəsində partiyanın 75 nəfərdən ibarət Mərkəzi Qərar və İdarə Heyəti də müəyyənləşib. Qurultayda iştirak edən xarici qonaqların şərəfinə Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın adından Prezident sarayında rəsmi ziyafət verilib.




# Cozef La Posta: Azərbaycan icmasının Avstraliyada harmoniyalı multikultural cəmiyyətə töhfələri var

Avstraliyanın Yeni Cənubi Uels (NSW) ştatının Multikulturalizm Məsələləri üzrə Nazirliyi erməni kinofestivalında nümayiş etdirilən filmlərin mövzusu ilə bağlı Azərbaycan icmasının məktubunu cavablandırıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin baş icraçı direktoru Cozef La Postanın adından Avstraliya Azərbaycanlıları Assosiasiyasının rəhbəri, Avstraliya və Okeaniya ölkələri üzrə Azərbaycanlıların Koordinasiya Şurasının Sidneydəki əlaqələndiricisi Mikayıl Oytaya ünvanlanan məktubda Azərbaycan icmasının ştatdakı mədəni müxtəlifliyə töhfələrinin yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb. “Şübhəsiz, Yeni Cənubi Uelsdə yaşayan Azərbaycan icmasının bu ştatın dünyada ən dinc və harmoniyalı multikultural cəmiyyətlərindən birinə çevrilməsində öz töhfələri var”, - deyə məktubda qeyd olunub.

Baş icraçı direktor vurğulayıb ki, Qarabağ münaqişəsinin narahatedici və mürəkkəb məsələ olduğunu anlayır, bu məqamın ştatdakı icmalararası münasibətlərə mənfi təsirinin qarşısını almağa çalışır. “Multikultural NSW nifrət və fikir ayrılığının təsiretmə probleminə çox ciddi yanaşır və biz sizin qaldırdığınız məsələlər üzrə konstruktiv



NSW GOVERNMENT | Multicultural NSW

Level 8, 56 Station Street East Parramatta NSW 2150
P.O. Box 618, Parramatta NSW 2124
P: 02 8255 6767
F: 02 8255 6868
TTY: 02 8255 6758
ABN 79 863 510 875

Mr Michael Oyta
President
Australian Azerbaijani Association Inc.
azerbaijanylar@hotmail.com

6 October 2023
Our Ref: C23/143

Dear Mr Oyta,

Thank you for your correspondence of 1 September 2023 to the Minister for Multiculturalism, The Hon. Stephen Kamper MP, regarding concerns about the 2023 Armenian Film Festival and community harmony. The Minister has forwarded your correspondence to me as the CEO of Multicultural NSW for reply.

Undoubtedly, the Azerbaijani community in New South Wales has contributed to making this State one of the most peaceful and harmonious multicultural societies in the world. Our resilience as a multicultural society can be measured by the way we come together across our differences to support each other in times of need.

I acknowledge that the conflict in the Nagorno-Karabakh region is a concerning and complex issue. I understand communities here in New South Wales with family and ancestral ties to the region are feeling the impact of the conflict. I know the community will ensure the conflict does not affect its relationship with fellow Australian communities here in New South Wales.

Multicultural NSW takes the issue of hateful and divisive influences very seriously and we welcome your suggestion of a constructive dialogue on the concerns you have raised. A representative from Multicultural NSW will reach out in the coming weeks to arrange a time to meet and discuss these matters with you in more detail.

Thank you for taking the time to bring this matter to the Government's attention.

Yours sincerely

Joseph La Posta
Chief Executive Officer

dialoq təklifinizi alqışlayırıq”, - deyə o cavabında bildirib.

Diqqətə çatdırılıb ki, nazirlik bu məsələlərin ətraflı müzakirəsi və görüş təyin edilməsi məqsədilə yaxın həftələrdə Mikayıl Oyta ilə əlaqə saxlayacaq.

Xatırladaq ki, Mikayıl Oyta 2023-cü ilin sentyabrında Yeni Cənubi Uels və Viktoriya ştatlarında təşkil edilmiş erməni kinofestivalında multikulturalizm dəyərləri ilə bir araya sığmayan, separatçılıq, nifrət, irqçilik, ərazi iddiaları kimi elementlərin daxil olduğu filmlərin nümayişi ilə bağlı narahatlığını multikulturalizm məsələləri üzrə nazir Kolin Bruksa ünvanladığı məktubda ətraflı ifadə edib. Azərbaycanın ayrılmaz parçası olan Qarabağın 30 il ərzində Ermənistan tərəfindən vəhşicəsinə işğala, dinc azərbaycanlıların hərbi cinayətlərə məruz qaldığı, Qarabağ məsələsinin Azərbaycan icması üçün həssas və ağrılı mövzu olduğu vurğulanıb. Bildirilib ki, bu yolverilməz hal millətlər, icmalar, dəyərlər və dinlər arasında münaqişənin başlanması üçün əsas ola, beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür yarada, Avstraliya cəmiyyətində disharmoniyaya gətirib çıxara bilər.

Assosiasiya rəhbəri Avstraliya rəsmilərini icmalararası qarşılıqlı dialoqun, belə festivalların narrativlərə yol verməmək, mədəni mübadilə prinsiplərinə əsasən keçirilməsinin təmin olunmasına çağırıb.

# “Fransa Ermənistandan zəif bənd kimi istifadə edir”

***“Rusiya da, Fransa da hər zaman müstəmləkəçi imperiya xislətli dövlət olublar. Rusiya heç vaxt özünün əhatə dairəsi saydığı ölkələrlə bərabər səviyyədə münasibətlər sistemi qurmayıb. Eyni şey Fransaya da aiddir. Baxmayaraq ki, üzdə erməni sevgisi, xristian həmrəyliyi kimi görüntü yaratsa da, ancaq mahiyyətcə Fransa da Ermənistandan zəif bənd kimi istifadə etməklə gələcəkdə Cənubi Qafqaza sirayət etmək istəyir. Bunun adı ekspansiyadır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Natiq Miri deyib. Onun sözlərinə görə, bu da növbəti müstəmləkə siyasətidir: "Makron Afrikada itirdiklərini Ermənistan vasitəsilə Cənubi Qafqazda kompensasiya etmək istəyir".***

**POLİTOLOQ ŞƏRH ETDİ**



”Əgər öz təhlükəsizliyini təmin edə bilmir və bunu başqa bir ölkəyə tapşırırsansa, əlbəttə ki, həmin ölkənin vassalı olmaq məcburiyyətindəsən. Qərar qəbul etmədən öncə vassalı olduğun ölkə ilə razılığa gəlməlisən. Ona görə də istər Fransa, istər ABŞ, istərsə də Rusiya ilə bu kontekstdə əməkdaşlıq Ermənistana subyektivlik tanımır və müstəqil dövlət imkanı vermir”,- deyə o əlavə edib.

***Ləman Sərraf***



# Dostluğumuz və qardaşlığımız əbədidir!

## *Türkiyə Respublikasının vitse-prezidenti YAP nümayəndə heyətini qəbul edib*



**Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz qardaş ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətini salamlayan Cevdet Yılmaz iki dost və qardaş ölkə olan Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin uğurla inkişaf etdiyini söyləyib.

Vitse-prezident qeyd edib ki, nümunəvi xarakter daşıyan Türkiyə-Azərbaycan işbirliyi regional və beynəlxalq əhəmiyyətə malikdir. C.Yılmaz vurğulayıb ki, iki ölkənin münasibətləri xalqlarımızın birliyini ifadə edən möhkəm təməl üzərində qurulub və dostluğumuz, qardaşlığımız əbədidir. O qeyd edib ki, Türkiyə və Azərbaycan beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləyir.

44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbənin xalqlarımızın qürur mənbəyi olduğunu nəzərə çatdıran Cevdet Yılmaz Azərbaycanın suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırıb. Vitse-prezident hər iki ölkənin beynəlxalq münasibətlər sistemində layiqli yer tutduğunu və öz mövqelərini möhkəmləndirdiyini, dövlət başçılarının iradələri əsasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iki ölkənin liderləri – Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasətləri nəticəsində Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu, dövlətçilik maraqlarımızın məharətlə təmin edildiyini vurğulayıb. 44 günlük Vətən müharibəsində Azərbaycana böyük mənəvi-siyasi dəstək göstərən qardaş Türkiyənin yeni reallıqlar fonunda da ölkəmizin haqlı mövqeyini müdafiə etməsinin dostluq və qardaşlıq örnəyi olduğunu söyləyib.

İki qardaş ölkənin daim bir-birinin yanında olduğunu bildirən YAP Sədrinin müavini "Bu gün iftixarla qeyd edirik ki, sözümüz və əməlimiz birdir. Dəfələrlə sübuta yetirmişik ki, biz birlikdə güclüyük və bundan sonra da möhtəşəm uğurlara imza atmaq əzmindəyik",- deyə qeyd edib.

Son 20 ildə reallaşdırılmış möhtəşəm layihələr və qazanılmış uğurlar nəticəsində Türkiyənin gücünün kifayət qədər artdığını bildirən YAP Mərkəzi Aparatının rəhbəri Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş ölkənin milli inkişafa hədəflənən bütün planlarının reallaşdırılacağına inamını ifadə edib. Tahir Budaqov iki ölkənin hakim partiyaları arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini də diqqətə çatdırıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# "Beynəlxalq tədbirlərin Şuşada keçirilməsi turizm baxımından əhəmiyyətlidir"

**EKSPERT DANIŞDI**




"İqtisadi Əməkdaşlıq Təşkilatının Ərdəbildə keçirilən görüşündə "Ərdəbil Bəyannaməsi" qəbul olundu və Şuşa turizmin paytaxtı seçildi. Azad olunduqdan bugünədək Şuşada görülən işlərin hər birində "Qarabağ Azərbaycandır" mesajları verilsə də, eyni zamanda, turistlərin cəlb olunması üçün yeni imkanlar yaradılır". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.

Onun sözlərinə görə, Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə xüsusi turizm marşrutu üzrə səyahətlər təşkil olunur: "Bəzi turizm şirkətləri artıq bunu həyata keçirməkdədir. Eyni zamanda, müxtəlif mədəni beynəlxalq tədbirlərin də məhz Şuşada keçirilməsi turizm sahəsinin inkişafı üçün də əhəmiyyətlidir".

Ekspert sözlərinə davam edərək bildirib ki, bu beynəlxalq tədbirlər o ərazidə artıq təhlükənin sovuşduğunu da göstərir: "Bu mənada Şuşada keçirilməsi, 2026-cı il üzrə turizm paytaxtı elan olunması gələcəkdə də daha çox müxtəlif istiqamətdə beynəlxalq tədbirlərin keçirilməsi üçün şərait yaradır. Bu o deməkdir ki, hər il Şuşanın turizm destinasiyası kimi tanıtımı məqsədilə bir çox işlər görüləcəkdir. İmkan olduqca oraya gələn turistlər işğaldan azad olunmuş digər ərazilər və tarixi faktlara şahidlik edə biləcəklər. Bu, həm də Azərbaycanın öz haqq səsini doğru şəkildə dünyaya duyura bilməsində müsbət bir faktordur".

***Ləman Sərraf***

# "Ermənilər nə müharibə istəyirlər, nə də sülhə hazırdırlar"

"Ermənistan cəmiyyətinin konkret olaraq müharibə və yaxud sülh istəməsi ilə bağlı mövqeyi aydın deyil". Bunu SİA-ya açıqlamasında politoloq Mətin Məmmədli deyib.

Onun sözlərinə görə, ikinci Qarabağ müharibəsindən sonra Ermənistanda baş verən proseslərə diqqət yetirmək lazımdır: "Bu zaman biz nələrin şahidi oluruq? Ermənistan hökuməti və Paşinyan ikinci Qarabağ müharibəsində böyük məğlubiyyətə uğradı. Hərbi, siyasi məğlubiyyətə baxmayaraq, Paşinyan hökuməti hakimiyyətdə qala bildi. 2021-ci ilin iyun ayında Ermənistanda keçirilən parlament seçkilərində Paşinyan və partiyası növbəti dəfə qələbə əldə etdi və öz hakimiyyətini möhkəmləndirdi. Paşinyanın seçkilərdə qalib gəlməsi və Paşinyana qarşı etiraz aksiyalarına Ermənistan müxalifətinin, revanşist qüvvələrinin lazımi kütlə toplaya bilməməsi ondan xəbər verir ki, Ermənistan cəmiyyəti Azərbaycanla müharibədə maraqlı deyil. Yəni, Ermənistan müharibə istəmir. Amma eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, Ermənistan cəmiyyəti müharibə istəməmәklə bərabər, həm də Azərbaycanla sülhə də hazır deyil. Qeyd etdiyim kimi, Ermənistanda hazırda belə bir produksal vəziyyət hökm sürür, nə müharibə istəyirlər, nə də ki, sülhə hazırdırlar. Ona görə də Ermənistanla biz sülhə nail ola bilmirik. Ancaq Azərbaycan dövlətinin mövqeyi və məqsədi ondan ibarətdir ki, qısa müddət ərzində Ermənistanla sülh müqaviləsi imzalansın".

***Gülyana***

**POLİTOLOQ ŞƏRH**



*Cənubi Qafqazın nəqliyyat və logistika məsələləri ilə bağlı son illərdə baş vermiş bütün dəyişikliklərdən Azərbaycan faydalanmaqdadır. Diqqətə çatdıraq ki, hazırda əksər qlobal aktorlar ölkəmizi məhz regionun nəqliyyat və logistika reallıqlarından, Cənubi Qafqazda son illərdə baş vermiş dəyişikliklərdən ən çox faydalanan ölkə kimi tanıyırlar. Əslində, həqiqətən də belədir. Təsadüfi deyil ki, son üç ildə Avropa ölkələri, o cümlədən Rusiya, Çin, Mərkəzi Asiya ölkələri Orta Dəhliz çərçivəsində ölkəmizin ərazisindən tranzit daşımalarının təşkili üçün öz variantlarını təklif edirlər. Artıq beş ildir ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yüklərin daşınması da daxil olmaqla, bu dəhlizin birləşmiş dəniz və dəmiryolu komponenti olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu fəaliyyətdədir və haqlı olaraq bu, böyük uğur hesab olunur.*



# Böyük perspektivli REGİONAL NƏQLİYYAT VƏ LOGİSTİKA QOVŞAĞI

Bəli, həqiqətən də Azərbaycan regional nəqliyyat və loqistika qovşağı layihəsinin icrasını sürətləndirməkdədir və bu layihənin reallaşdırılması bundan sonra daha böyük perspektivlər vəd edir. Xüsusən də Qarabağ bölgəsində lokal antiterror tədbirlərinin uğurla başa çatdırılmasından, separatçılığın, terrorçuluğun kökünün kəsilməsindən, işğaldan azad olunan ərazilərində də qanunçuluğun bərqərar edilməsindən, təhlükəsizliyin təminatından sonra Zəngəzur dəhlizində polad magistralların və yol infrastrukturunun çəkilməsi işlərinin sürətləndirilməsi Azərbaycanın uğurlarının davamlı xarakter daşıdığını təsdiq edir və nikbin proqnozlar üçün əsaslı zəmin yaradır. Həqiqətən də ölkəmiz regional nəqliyyat və loqistika qovşağı layihəsinin icrasına davamlı olaraq öz töhvələrini verməkdədir.

Azərbaycanın Zəngilan rayonunun Ağbənd kəndi yaxınlığında İranla birgə avtomobil körpüsünün və gələcək sərhəd-gömrük infrastrukturu obyektlərinin çəkilişi ilə bağlı mərasimin keçirilməsi nəqliyyat kommunikasiyaları baxımından uğurların davamlı olacağını təsdiqləyir. Ələlxüsus da, 123,5 kilometrlik Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun əsas tərkib hissəsi sayılan yeni körpü tikintisi bu baxımdan diqqətə layiqdir. Həm də ona görə diqqətə layiqdir ki, Naxçıvan Muxtar Respublikasının nəqliyyat kommunikasiyaları ilə bu marşrut Türkiyəyə birbaşa çıxış üçün birləşdiriləcək. Deməli, bu marşrutun nə dərəcədə, nə qədər əhəmiyyətli olması artıq indidən bəllidir və xüsisilə də nəzərə alınır.

Şərq-Qərb istiqamətində daşımaların sürətlə artan həcminə diqqət etdikdə görürük ki, yük daşınması təkcə 2022-ci ildə 75% artıb. Bu artımın davamlı xarakterdə olacağını nəzərə aldıqda isə, belə qənaətə gəlmək olur ki, Bakı-Tbilisi-Qars xəttinin tutumu tezliklə tam olaraq kifayət etməyə bilər. Məhz elə bu baxımdan da hazırda yükdaşıma qabiliyyətinin ildə 1 milyon tondan 5 milyon tona çatdırılması üçün modernləşdirmə işləri aparılır. Nəzərə alsaq ki, "Şimal-Cənub" layihəsi çərçivəsində kiçik həcmdə yüklər daşınmır və Rusiya-İran yük tranzitinin genişləndirilməsi planları fonunda əlavə daşıma qabiliyyətinə ehtiyac xeyli artacaq, deməli, nəqliyyat və loqistikanın şaxələndirilməsi çərçivəsində işlər tamamilə məntiqi və məqsədəuyğundur. Bütün bunlar nəzərə alınaraq, qələbəmizlə başa çatan 44 günlük Vətən Müharibəsi bitdikdən dərhal sonra Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunda yol infrastrukturunun tikintisi və relslərin çəkilməsi işlərinə başlanıldı və görülən işlər təbii ki, daha böyük uğurlar vəd edir.

Üç ildən az bir müddətdə Cəbrayıl və Zəngilan rayonları ərazisindən keçən marşrutun 110,4 kilometrlik birxətli dəmir yolu hissəsinin üçdə ikisindən çoxunun çəkilişi təsdiq edir ki, "Zəngəzur dəhlizi" adlanan transsərhəd beynəlxalq marşrutun kommunikasiyalarının formalaşması çox uğurla davam edir. Diqqətə çatdıraq ki, bu layihə çərçivəsində tunellərin, körpülərin, dəmir yolu stansiyalarının tikintisi, müxtəlif təyinatlı çoxlu sayda mühəndis konstruksiyasının ucaldılması planlaşdırılır. Həmçinin, uzunluğu 123,5 km olan, bir hissəsi altı zolaqlı olacaq birinci texniki dərəcəli Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun dördzolaqlı hissəsində 2021-ci ilin oktyabr ayından tikinti işləri aparılır, hansıki son vaxtlar bu layihə üzrə işlərin sürətləndirilməsi sayəsində onun ümumi həcminin 80 faizi tamamlanıb. Hətta, cari ilin sonunadək bu avtomobil yolunda tikinti işlərinin 90 faizdən çoxunun başa çatdırılacağı gözlənilir. Nəzərə çatdıraq ki, bütün bunların fonunda cari ilin 6 oktyabr tarixində Zəngəzur dəhlizinin formalaşmasında daha bir mühüm mərhələ başlandı. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi çərçivəsində Azərbaycan-İran sərhəddində, Zəngilan rayonunun Ağbənd kəndi ərazisində avtomobil körpüsünün və sərhəd-gömrük infrastrukturunun təməlqoyma mərasimi oldu və Araz çayında sahil bərkitmə tədbirlərinə başlanıldı, hansıki butün bunlar strateji baxımdan olduqca əhəmiyyətlidir.

Xatırlatmaq yerinə düşərdi ki, Horadizdən Ağbəndə gedən avtomobil yolunun Ermənistanın Mehri rayonu ərazisindən davam etdirilməsi, daha sonra da Naxçıvanın nəqliyyat arteriyaları ilə birləşdiriləcəyi planlaşdırılırdı, hansıki əslində bu, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin razılaşdığı 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda da nəzərdə tutulmuşdu. Lakin reallıq ondan ibarətdir ki, Ermənistan Zəngəzur dəhlizinin açılması məsələsində son dərəcə qeyri-konstruktiv mövqe tutdu. Tamamilə fərqli və uyğunsuz tələblər irəli sürən Ermənistan dəhliz məsələsi ilə bağlı da manipulyasiya etdi. İrəvanın bu manipulyasiyaları ümumilikdə danışıqlar prosesini ləngitdi, hətta onu dalana dirədi və yanaşmasının konstruktiv olmadığı, qeyri-konstruktiv olduğu barədə rəsmi Bakı xəbərdarlıq etsə də Ermənistan tərəfi bundan nəticə çıxarmadı. Təbii ki, nəqliyyat kommunikasiyalarına belə etinasızlıq Ermənistanın özünə ziyan vurur, onu iqtisadi imkanlardan məhrum edir və Zəngəzur dəhlizi Ermənistan ərazisindən yan keçərsə, həmin ölkə iqtisadiyyatını inkişaf etdirmək, təkmilləşdirmək üçün daha bir əlverişli fürsəti əldən verməş olur. Sözsüz ki, bütün bunları, daha dəqiq desək, Ermənistanın manipulyasiyalarını, qeyri-konstruktiv yanaşmasını nəzərə alan rəsmi Bakı 2022-ci il 11 mart tarixində "Azərbaycan və İran hökumətləri arasında yeni yolların yaradılmasına dair Anlaşma Memorandumu" çərçivəsində Zəngəzur marşrutunun alternativ variantı haqqında saziş bağladı və artıq 55 km uzunluğunda avtomobil yolunun, eləcə də Araz çayı üzərindən 4 sərhəd körpüsünün tikintisi və relslərin birləşdirilməsi ilə paralel dəmir yolu xəttinin tikintisi üzrə layihənin razılaşdırılması aparılan siyasətdə uzaqgörənlik deməkdir və uğurlu nəticələrə hesablanıb.

Azərbaycan-İran sərhədində avtomobil körpüsünün və sərhəd-gömrük infrastrukturunun təməlinin qoyulması ilə bağlı təntənəli mərasim Zəngəzur dəhlizinin alternativ variantının həyata keçirilməsinə start verildiyini göstərir. Diqqətə çatdıraq ki, yeddi zolaqlı yeni körpünün tikintisi ilə gündə ən azı 1100 ağır yük maşınının, o cümlədən 15 minə yaxın insanın və onlarla avtobusun maneəsiz keçidi təmin olunacaq. Bütün bunların fonunda təntənəli mərasim zamanı həmçinin İran ərazisindən keçməsi planlaşdırılan daha üç körpünün və tranzit dəmir yolu xəttinin tikintisi layihələri də nəzərdən keçirilib. Sözsüz ki, bu tədbirlər nəticəsində regionun tranzit imkanlarının xeyli genişlənəcəyi, Naxçıvan Muxtar Respublikasına giriş-çıxış imkanlarının təkmilləşdiriləcəyi, yüklərin daşınmasının asanlaşdırılması istiqamətində addımlar atılacağı, yeni yolun həm Azərbaycan, həm İran, həm də bütün region üçün vacib olan tranzit yük daşımalarına xidmət edəcəyi diqqətdən yayına bilməz. Bütün bünlar nəzərə alınaraq, eləcə də həmin məsələlərin həlli üçün İran İslam Respublikası ilə artıq razılıq əldə olunub. Heç kim üçün sirr deyil ki, Ağbənddən Naxçıvana yol əlaqəsi Şərqi Zəngəzur iqtisadi rayonunun infrastrukturunun mühüm tərkib hissəsi sayılır və işlər başa çatdıqdan sonra rayon nəhəng Avrasiya regionuna xidmət göstərən loqistika mərkəzinə çevriləcək.

Əlbəttə ki, qardaş Türkiyə də Azərbaycanın Zəngəzur dəhlizinin formalaşdırılması planları ilə tam razıdır. Son dövrdə bu nəqliyyat arteriyasının Türkiyə seqmentində də işlərinin sürətləndirilməsi, ələlxüsus da, nəqliyyat dəhlizinin Türkiyə hissəsində Dilucu, İğdır və Qarsda işlər aparılması və həmin işlərin bu il başa çatdırılmasının planlaşdırılması barədə Türkiyə Nəqliyyat Departamentinin açıqlamalarında qeyd edilməsi bunu bir daha təsdiq edir. Bu il 25 sentyabr tarixində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə rəsmi səfəri zamanı qardaş ölkənin başçısı və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qars-Naxçıvan dəmir yolu tikintisinə dair niyyət protokolu imzalamaları da sıradan bir hadisə deyil, sözügedən dəhlizin formalaşdırılması planlarının üst-üstə düşdüyünü təsdiq edən məqamdır. Xatırlatmaq tamamilə yerinə düşərdi ki, Qars-İğdır-Aralıq-Diluçu-Sədərək marşrutu üzrə 214 km uzunluğunda dəmir yolu xəttinin çəkilməsi üçün Ankara və Bakı təxminən doqquz il əvvəl ilkin layihəni artıq hazırlayıblar, hansıki bu məqam razılığın artıq çoxdan oduğunu təsdiq edir.

Etiraf etmək lazımdır ki, Cənubi Qafqazın nəqliyyat və loqistika məsələlərinin öz həllini tapması digər region olkələrindən daha çox Azərbaycan üçün faydalıdır. Çünki Cənubi Qafqazda nəqliyyat və loqistika ən çox ölkəmizin imkanlarının dəfələrlə artması, əlaqələrinin genişlənməsi deməkdir. Doğrudur, nəqliyyat və loqistika bütövlükdə region ölkələri üçün olduqca böyük əhəmiyyət kəsb edir, baxmayaraq ki, bunu Ermənistan kimi məsələyə qeyri-konstruktiv yanaşma sərgiləyən bir ölkə düzgün dəyərləndirə bilmir, amma nəinki qardaş Türkiyə, İranın belə bu məsələdə maraqlı olduğunu gizlətməməsi təsdiq edir ki, həmin o nəqliyyat və loqistika məsələləri region ölkələrinin maraq dairəsindədir. Amma ölkəmiz üçün daha böyük perspektivlər vəd etdiyi daha aydın, daha qabarıq şəkildə özünü göstərir və etiraf olunmalıdır ki, ən çox faydalacaq ölkə məhz Azərbaycan hesab olunur. Elə ona görə də böyük perspektivli regional nəqliyyat və loqistika qovşağının istənilən halda reallığa çevriləcəyi zərrə qədər də şübhə doğurmur, çünki Azərbaycan öz qarşısına qoyduğu bütün məqsədlərə nail ola bilir.

***İnam Hacıyev***

# Növbəti etimad

Təhlil

***PREZİDENT İLHAM ƏLİYEV:***
***"Azərbaycan xalqını əmin etmək istəyirəm ki, Mən bundan sonra da ölkəmizin hərtərəfli inkişafı, xalqımızın rifahı üçün əlimdən gələni əsirgəməyəcəyəm, doğma xalqımıza bundan sonra da sədaqətlə xidmət edəcəyəm"***



Demokratik dəyərlərə sadiqliyi ilə seçilən ölkəmizdə demokratik seçki keçirilməsi üçün mükəmməl qanunvericilik bazasının olması və seçkilərin demokratik prinsiplər əsas tutaraq seçkilərin nəticələri xalqın iradəsini özündə əks etdirir. Bu baxımdan 2013-cü il oktyabrın 9-da keçirilən prezident seçkilərində Azərbaycan xalqı sabitlyə və dinamik inkişafa səs verərək qarşıdakı beş ildə ölkənin taleyini kimə etibar edəcəyini müəyyənləşdirdi. Həmişə olduğu kimi, yüksək əhval-ruhiyyədə keçən prezident seçkisi geniş Azərbaycan ictimaiyyətinin, həm də beynəlxalq təşkilatların, həmçinin çox nüfuzlu qurumların müşahidəçilərinin, dünyaca şöhrətli ictimai-siyasi xadimlərin nəzarəti altında baş tutdu. Və seçicilər heç bir manеə və təzyiqlə üzləşmədən öz iradələrini sərbəst şəkildə ifadə etdilər və demokratik, şəffaf keçirilən seçkilərdə Azərbaycanın demokratik proseslərin inkişafına sadiqliyi bir daha nümayiş olundu. Cənab İlham Əliyev bu seçkilərdə xalqın böyük etimadını qazanaraq parlaq qələbə qazandı.

Həm yerli, həm də beynəlxalq müşahidəçilərin rəylərində, habelə keçirilmiş "exit-poll"ların nəticələrində bildirilir ki, seçkilər insanların yüksək fəallığı, mütəşəkkil şəraitdə keçmişdir. Səsvermənin nəticələri də təsdiqləyir ki, budəfəki seçkilərdə seçicilərin mütləq əksəriyyəti öz səsvermə hüququndan istifadə etmişdir. Azərbaycan seçiciləri yüksək fəallıq nümayiş etdirməklə çox zəruri siyasi kampaniyaya böyük maraq və diqqət göstərdiklərini sübut etdilər.

### 2013-CÜ İLİN PREZİDENT SEÇKİLƏRİ AZƏRBAYCANDA DEMOKRATİYA QURUCULUĞU YOLUNDA İRƏLİYƏ DOĞRU BÖYÜK ADDIM OLUB

Bəli, bu qələbənin kökündə Azərbaycanda həyata keçirilmiş nəhəng layihələr, böyük işlər və əzəmətli nailiyyətlər dayanır. İnsanlar yerlərdə səs verərkən başa düşürdülər ki, ölkənin gələcəyi, sosial-iqtisadi islahatların sonrakı gedişi, nəhayət bütün dünyada narahatlıq doğuran reallıqlar fonunda Azərbaycan iqtidarının titanik səyləri nəticəsində əldə edilmiş sabitliyin və inkişafın taleyi ilk növbədə onlardan asılıdır. Və səsvermənin gedişini müşahidə edən, seçkilərdə iştirak edən hər kəs ölkənin siyasi və demokratik təsisatlarının, Mərkəzi Seçki Komissiyasının, vətəndaş cəmiyyəti strukturlarının seçkilərin ən yüksək standartlara uyğun olması üçün onlardan asılı olan bütün tədbirləri həyata keçirdiklərini yəqin etmək imkanına malik idi. Bu gün fərəhlə qeyd edə bilərik ki, şəffaflıq, demokratiyanın fundamental prinsiplərinə riayət edilməsi seçicilərin öz iradələrini sərbəst ifadə etmələri üçün lazım olan hər cür şərait yaratmışdır Seçicilərin fəallığı və səsvermənin nəticələri göstərdi ki, respublika vətəndaşlarının böyük əksəriyyəti hakim Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin təklif etdiyi davamlı inkişaf xəttini bütünlüklə dəstəkləyir. Və bu gün xalqımız, həmçinin bütün dünya görürü ki, son 20 illiy prezidentlik fəaliyyəti dövründə ölkəmizin fundamental sosial-iqtisadi uğurları Onun adı ilə ayrılmaz surətdə bağlıdır. Sevindirici haldır ki, Azərbaycanda vətəndaş fəallığı, optimal seçim etməklə yenilikləri düşünülmüş şəkildə dəstəkləyir və 2013-cü il oktyabrın 9-da keçirilən prezident seçkilərində də ümummilli liderin siyasi xəttinə sadiq olduğunu və bu siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevə inandığını, güvəndiyini, etimad göstərdiyini, onu hər zaman dəstəklədiyini növbəti dəfə nümayiş etdirdilər.

Və Azərbaycan xalqı üçüncü dəfə İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. O kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Üçüncü dəfə seçilən Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində xalqa arxalandığını qeyd edərək bildirdi ki, «Azərbaycan xalqı öz taleyinin sahibidir və Azərbaycan heç vaxt tarixdə bu qədər güclü olmamışdır, heç vaxt müstəqilliyimiz bu qədər möhkəm olmamışdır».

Hesab edirik ki, bu tarixi fikir sözün həqiqi mənasında, Azərbaycanın tam müstəqil, heç kəsdən asılı olmayan bir dövlət olduğunu və bu gün müstəqil Azərbaycanın milli siyasi iradənin diktəsi ilə idarə olunduğunu sübut edən, göstərən ən bariz tezislərdən biridir.

Həmçinin, Prezident İlham Əliyev onu da vəd etdi ki, "Azərbaycan xalqını əmin etmək istəyirəm ki, Mən bundan sonra da ölkəmizin hərtərəfli inkişafı, xalqımızın rifahı üçün əlimdən gələni əsirgəməyəcəyəm, doğma xalqımıza bundan sonra da sədaqətlə xidmət edəcəyəm". Bu, Azərbaycan Prezidentinin öz xalqına minnətdarlığının ifadəsi, eyni zamanda, Onun iradəsinin gələcəkdə də təmsilçisi olması ilə bağlı xalqa verdiyi sözdür, lider-xalq, xalq-lider birliyinin ən bariz nümunələrindəndir. Çünki dövlət başçımızın hər fikrində istinad etdiyi nöqtə Azərbaycan xalqıdır, xalqın maraqlarıdır.

Bir sözlə, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyev strategiyasını, onun diplomatiyasını, müəyyənləşdirdiyi siyasi kursu daha da möhkəmləndirdi, müasirləşdirdi, modernləşdirdi. Ümumilikdə, cənab Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr Azərbaycanın inkişaf və tərəqqi dövrüdür. Bunlar bütünlüklə İlham Əliyevi parlaq qələbəyə aparan sistemli strategiya idi. Əlbəttə, bütün uğurların əldə olunmasında sabaha, gələcəyə inam hissi dayanırdı. Dövlət başçısının tükənməz enerjisi, qətiyyəti, möhkəm iradəsi Azərbaycan xalqının arzu və istəklərinin reallaşdırılmasına zəmin yaratdı. Xalqın inamına arxalanaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasəti ilə Güclü Ordumuzun qəhrəman əsgər və zabitlərin rəşadəti ilə 30 illik Qarabağ həsrətinə cəmi 44 gündə möhtəşəm Zəfərlə tarix yazdı. Və Böük Qələbə Zəfərindən keçən 3 il ərzində Prezident İlham Əliyev ölkə iqtisadiyyatını inkişaf etdirərək, Qarabağı yenidən dirçəldərək, Azərbaycanı yeni zirvələrə doğru aparmaqdadır.



***RƏFİQƏ HÜSEYNOVA***

# Uğurlu idman siyasəti

*Son illər Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar Azərbaycan dövlətinin inkişafına, onun sosial-iqtisadi bazasının yüksəlməsinə, regionların sosial-iqtisadi inkişafına, insanların rifah halının yüksəldilməsi istiqamətində islahatların həyata keçirilməsinə və s. yönəlmişdir. Bu Sərəncamlar dövlətin təməlinin daha da möhkəmlənməsinə, Azərbaycanın dünyaya inteqrasiya tempinin artmasına töhfələrini verir. Azərbaycan idmanının yüksəlməsi, onun inkişafı da daim diqqətdə saxlanılır. Prezident İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub. Azərbaycan dünyanın idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə. Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.*



## Dövlət başçısının Sərəncamı ilə Gəncə şəhər stadionunun yenidən qurulmasına 1,0 (bir) milyon manat ayrılıb

Təhlil

Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir". Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar Azərbaycanın idman sahəsindəki uğurlarını xüsusi olaraq dəyərləndirirlər. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə "Gəncə şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılıb.

Qeyd edək ki, Gəncə şəhər stadionu Azərbaycanın ən böyük klub stadionudur. Stadion 1959-cu ildə tikilərək istifadəyə verilib. Burada bir sıra məşhur oyunlar keçirilib. Azərbaycan Premyer-liqasının 2015/2016-cı il mövsümündə tamaşaçı sayında rekord vuran "Kəpəz" futbol klubunun çempionat ərzində 18 ev oyununu Gəncə şəhər stadionundan 240 min 650 azarkeş izləyib. Ən çox tamaşaçı 2016-cı il fevralın 14-də XXI turda keçirilən "Kəpəz"–"Qarabağ" görüşündə qeydə alınıb – 20 min 400 tamaşaçı.

### "AZƏRBAYCAN GƏNCLƏRİNİN İDMANA BÖYÜK MARAQ GÖSTƏRMƏSİ BİZİ SEVİNDİRİR"

Müasir dövrümüzdə mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi edir. Bu gün ölkəmizdə Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğuları var. Vətən müharibəsində düşmən işğalından azad edilmiş rayonlarımızda da idman müəssisələrinin yaradılması nəzərdə tutulur.

Müxtəlif idman yarışlarının keçirilməsi üçün ölkəmizdə hər cür imkanlar yaradılıb. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib.

### DİQQƏT VƏ QAYĞININ REAL VƏ ƏYANİ TƏCƏSSÜMÜ

Dünya idmanının tarixində ilk dəfə keçirilən Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medalı qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi, Dövlət Himnini səsləndirilməsi idmana olan qayğının nəticəsi idi. Eləcə də Azərbaycanın 2017-ci ildə 4-cü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi də ölkəmizin idman arenasında söz sahibi olmasına dəlalət edir. Dünya, islam aləmi üçün çox önəmli idman yarışmasının ölkəmizdə təşkili dünya miqyasında nüfuzumuzun göstəricisidir. Daha sonra Azərbaycan velosiped idmanının BMX növü üzrə dünya çempionatını, "Formula-1" yarışlarını və digər oyunları uğurla keçirdi. Beynəlxalq Gimnastika Federasiyasının 82-ci Konqresi, Dünya Antidopinq Agentliyinin Təsisçilər Şurası və İcraiyyə Komitəsinin iclası, Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumu çərçivəsində müxtəlif idman növləri üzrə yarışlar və digər mühüm beynəlxalq turnirlər və tədbirlər yüksək səviyyədə təşkil olundu.

Qeyd edək ki, təkcə 2022-ci il də idmançılarımız beynəlxalq yarışlarda 800-dən çox medal qazandılar, onlardan 300-ə yaxını qızıl medaldır. Türkiyənin Konya şəhərində keçirilmiş İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın uğurlu çıxışını xüsusi qeyd etməliyik. 56 ölkənin iştirakı ilə keçirilmiş oyunlarda idmançılarımız 99 medalla 4-cü yerə layiq görüldülər. 2017-ci ildə Bakıda keçirilən 4-cü İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız tarixi qələbə qazanaraq komanda hesabında birinci olmuşdur.

Ölkəmiz keçirilən bütün beynəlxalq idman yarışlarına tam hazır vəziyyətdədir. Belə yarışların keçirilməsi və idmançılarımızın bu və ya digər yarışlarda qalib olması onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. Cənab Prezident bilirib ki, idman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıb. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıb.

Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi bu sahənin, eləcə də həmin idman növlərinin inkişafına, idmanın kütləviliyinin təmin olunmasına xidmət edir.

**Nəzakət ƏLƏDDİNQIZI**

---



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Naxçıvan görüşü: "Qafqaz evi" və Türk birliyi üçün yeni bünövrə

Azərbaycan və Türkiyə liderlərinin Naxçıvan görüşləri, bu qədim Azərbaycan torpağında olduqca mühüm iqtisadi layihə olan İğdır-Naxçıvan qaz kəmərinin əsasının qoyulması artıq məsələni Türkiyə-Azərbaycan müstəvisindən çıxararaq tamamilə qlobal məcraya yönəldir. Açıq-aydın görünən odur ki, artıq Azərbaycan regional siyasət piramidasında olduğu kimi, türkdilli ölkələr müstəvisində, eləcə də Qafqaz regionunda müharibələri arxa plana, iqtisadi tərəfdaşlığı ön plana keçirən birləşdirici rol məsələsində də liderliyi üzərinə götürüb. Dünya siyasətində nüfuz dairələrinin yenidən bölüşdürülməsi işinin sürətlə vüsət aldığı indiki vaxtda Azərbaycanın bölgədə oynadığı rol getdikcə əhəmiyyətini artırır. Heç şübhəsiz ki, hər şey zərgər dəqiqliyi ilə hesablanmış siyasətin məhsuludur. Bu, kiminsə xoşuna gəlmək üçün deyilən tərif cümləsi deyil, tam ciddi məna daşıyan kəlmədir. Çünki siyasət naşılığı və zarafatı heç vaxt bağışlamır... Həm də nəzərə alaq ki, iqtisadi amil bütün siyasi planlar üçün ana xəttdir. Bu gün bütün birləşdirici funksiyanın önündə də iqtisadiyyat gəlir. İqtisadi güc və siyasi iradə!

Həmişə olduğu kimi, bu dəfə də Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda keçirilən regionun iki mühüm aktoru olan Türkiyə və Azərbaycanın prezidentlərinin görüşü həm dövlətlərin, həm regionun, həm də ümumilikdə dünya siyasətinə yeni perspektivlər, yeni yanaşmalar vəd edir. Xüsusilə regionda ildırım sürətilə baş verən yeniliklər fonunda Naxçıvan görüşü, əsası qoyulan olduqca mühüm iqtisadi layihələr rəsmi Bakının mövqelərini getdikcə artırır. Artıq Bakı proseslər üçün ciddi açar rolunu oynayır. Cəmi son bircə il ərzində Türk Birliyi üçün atılan addımlarda rəsmi Bakının iştirakını və əməyini nəzərə almaq kifayətdir ki, Azərbaycanın bu məsələdə liderliyini açıq-aydın görə biləsən. Naxçıvanda təməli atılmış İğdır-Naxçıvan qaz kəməri isə bir sıra iqtisadi dividentlərlə zəngindir. Gəlin, diqqət yetirək.

Öncə onu deyək ki, yenicə təməlqoyma mərasimi keçirilmiş İğdır-Naxçıvan qaz kəməri bu gün Naxçıvanın qazla təchizatında ciddi rol oynayacaqsa, gələcəkdə Zəngəzur dəhlizi açıldıqdan sonra yeni boru kəmərləri ilə Azərbaycandan Türkiyəyə birbaşa qaz ötürülməsi üçün imkanlar yaradacaq və nəhayətdə Avropanın da enerji təhlükəsizliyinə töhfə verəcək.

### İğdır-Naxçıvan qaz kəməri "Qafqaz evi" ideyası üçün iqtisadi stimul yaradır

Bir məqama da diqqət yetirək. Zəngəzur dəhlizi barədə danışırıqsa bir mühüm faktı diqqətdən yayındırmayaq. Çünki Zəngəzur dəhlizi regionda sülhün və təhlükəsizliyin bərqərar olması, Cənubi Qafqaz ölkələrinin – Azərbaycan, Gürcüstan və Ermənistanın iqtisadi və sosial inkişafı baxımından mühüm rol oynayacaq, "Qafqaz evi" ideyasının təşəkkül tapmasına zəmin yaradacaq. Diqqət etdinizmi? – bəli "Qafqaz evi" ideyası üçün də iqtisadi stimul yaradır bu mühüm enerji layihəsi. Bu isə o deməkdir ki, Azərbaycan və Ermənistan arasında gündəmdə olan sülh müqaviləsi reallaşarsa, separatçı və terrorçuların xunta rejimi altında inləyən torpaqlarda yeni canlanma, iqtisadi dirçəliş və insanların sosial rifahına böyük imkanlar yaradan şərait qurulacaq. Bu həm də o deməkdir ki, on illərdir aclıq və səfalət altında inləyən, daşnak faşist ideyasından başqa heç bir inkişafla tanış olmayan erməni əhalisi...

Bu layihə Naxçıvanı Çin, Avropa ölkələri, eyni zamanda, Fars körfəzi ölkələri ilə birləşdirəcək. Layihənin həyata keçirilməsi ilə Naxçıvanın ixrac potensialı xeyli artacaq. Naxçıvan məhsullarının post-sovet ölkələrinə, eləcə də Avropa və Asiya ölkələrinə rahat və birbaşa çıxışı təmin ediləcək. Layihə çərçivəsində muxtar respublikada da dəmir yollarının müasir ikiizli dəmiryolu sisteminə keçirilməsi, yeni işarəvermə və elektrik sistemlərinin, həmçinin digər infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur. Bu, yük və sərnişin daşınmasını ən müasir səviyyəyə yüksəldəcək. Həmçinin, soyuducu vaqonlardan istifadə etməklə muxtar respublikanın ekoloji təmiz və orqanik məhsulları dünya bazarına rahatlıqla çıxarılacaq. Tranzit imkanların artması Sovet dövründə də xeyli inkişaf etmiş məşhur Ordubad ipəkçiliyinin şöhrətini özünə qaytaracaq. Layihə Naxçıvanda turizmi də xeyli canlandıracaq.

Bundan başqa, Azərbaycan təbii qazı Qarsdan İğdıra, oradan da Naxçıvana nəql ediləcək. Bununla da muxtar respublikanın qaza artan tələbatının bir mənbədən - İrandan asılılığı sona çatacaq. Gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə bu kəmərdən təbii qaz əks istiqamətdə nəql olunacaq. Azərbaycan və Türkiyənin tranzit imkanlarını daha da artıracaq. Bu isə o deməkdir ki, Azərbaycan həm bölgədə, həm də Avropa qitəsində uzun onilliklər boyu əsas enerji ötürücüsü kimi mövqe tutacaq.



# “Qarabağ” dastanının “Hadrut” boyu

***2020-ci ilin sentyabrında başlayıb 44 gün davam edən Vətən müharibəsi digər işğal altında olan torpaqlarımız kimi, Hadrutu da azadlığına qovuşdurdu. 9 oktyabr Azərbaycan tarixinə Hadrutun azad olunması kimi qızıl hərflərlə yazıldı. Bu gün Hadrutda Azərbaycan bayrağı dalğalanır və bu bayrağın dalğası altında yurd yerimizə yeni həyat gəlir. Burada aparılan bərpa işləri Hadruta yeni həyatın verilməsi ilə yanaşı, həm də sakinlərinin tezliklə ata-baba ocaqlarına qayıtmasına xidmət edir.***



## Hadruta qısa səyahət...

Hadrut- təbiətin iki çayın arasına sığdırdığı bu qədim Azərbaycan torpağı adının mənasından və coğrafiyasından da göründüyü kimi, həm də təbiətin bütün gözəlliklərini özündə ehtiva edir. Bu yurd yeri zaman-zaman milli ənənələrimizi qorumuş, xalçaçılıq, baramaçılığı, ticarəti və müxtəlif sənətkarlıq növlərini, xalqımıza məxsus əkinçilik mədəniyyətini yaşatmışdır.

Dəqiq salınma vaxtı məlum olmayan qəsəbə həm qədim, həm də orta əsr dövrünə aid abidələrlə zəngin olub. Qəsəbənin adı 1727-ci ildə Osmanlı qaynaqlarında Dizaq nayihəsinin Hadrut kəndi olaraq keçir. Çar dövründə Hadrut kəndi Yelizavetbol quberniyasının Cəbrayıl qəzasının tərkibində idi. Bura 1847-ci ildən Poltava atlı kazak alayının qərargahı idi.

1872-ci ildə Moskvada keçirilmiş Politexnik sərgisində iki sakininin təqdim etdiyi xalçalara görə gümüş mükafata layiq görülməsi, 1877-ci ildən burada Zurabov, Muradov və şəriklərinə məxsus baramaaçma karxanasının fəaliyyət göstərməsi Hadrutun inkişaf etmiş bir ərazi olduğunu şərtləndirir.

Əhali bağçılıq, bostançılıq, taxılçılıq, maldarlıq, ticarət və sənətlə məşğul idi. Hadrutda o dövrdə iki bazar, kilsə, ikiillik məktəb, birillik prixod məktəbi, zemstvo əczaxanası və teleqraf stansiyası fəaliyyət göstərirdi.

1923-cü ildə Hadrut kəndi Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin (hazırda bu muxtariyyət ləğv olunub) tərkibinə verilmişdir, 1930-cu ildə isə yeni yaradılmış Dizaq rayonunun inzibati mərkəzi seçilmişdir. 1939-cu ildə həmin rayon öz mərkəzinin adına uyğun olaraq Hadrut rayonu adlandırılmışdır. 1963-cü ildə Hadruta şəhər tipli qəsəbə statusu verilmişdir. Qəsəbədə üzüm emalı zavodu, xalça sexi, musiqi və ümumtəhsil məktəbləri, mədəniyyət evi, mərkəzi kitabxana və rayon xəstəxanası yerləşirdi.

Bəstəkar Üzeyir Hacıbəyov gənc yaşlarında Hadrutda müəllimlik etmişdir.

1992-ci ildə Hadrut rayonu ləğv olunub Xocavənd rayonunun tərkibinə daxil edilmiş, 2 oktyabr 1992-ci ildə -Birinci Vətən müharibəsi zamanı separatçı erməni qoşunları Hadrutu ələ keçirmişdir.

## Beləliklə 30 ilə yaxın...

Ermənilərin havadarlarından aldıqları dəstəklə digər torpaqlarımız kimi, Hadrut da işğal olunmuşdu. Hadrut sakinləri də minilliklər boyu diş-dırnaqları ilə qurub-yaratdıqları ev-eşiklərini, həyat-bacalarını, mal-heyvanlarını, əkin sahələrini bar üstündə qoyub düşmən tərəfindən silah gücü ilə doğma ocaqlarını tərk etmişlər.

Hadrut sakinləri 30 ilə yaxın idi ki, yurd həsrəti ilə, bir gün doğma el-obalarına qayıtmaq ümidi ilə yaşayırdı. Hadrut sadəcə onların yuxularının Hadrutu olmuşdu. 30 ilə yaxın idi ki, yurd həsrəti sinələrinə dağ çəkirdi...

Erməni adlı xislətsiz, nankor isə torpaqlarımızı talan edir, yeraltı-yerüstü sərvətlərimizi daşıyıb satır, abidələrimizi, sosial obyektləri dağıdır, illərlə insanların min bir arzu ilə özlərinə qurduqları yuvaları məhz edir, daşı daş üstündə qoymurdu. Bütün bunları bilirdi hadrutlular. O səbəbdən bağırları çatlayırdı. Yurdlarında qoyub gəldikləri hər şey onların doğması idi, əllərinin zəhməti idi, reallaşan, lakin qısaömürlü arzuları idi.

Lakin o gün gələcəkdi, torpaqlarımız işğaldan azad olunacaqdı. Mərdliyi, igidliyi, qəhrəmanlığı ilə tarixə imzasını atan azərbaycanlılar torpaqlarını erməni işğalı altında qoymayacaqdı ki... Lakin bunun zamanı çatmalı idi, buna hazır olmalı idik. Olduq da. 2020-ci ildə Ali Baş Komandanın ətrafında birləşən xalq müzəffər sərkərdənin rəhbərliyi ilə torpaqlarımızı bir-bir azad etdi. Üçrəngli bayrağımız azad ellərə sancıldı. Düşmən qovulub torpaqlarımızdan çıxarıldı. Hadrut da azadlığına qovuşdu. Bu xəbər hadrutluların sevincinə, xoşbəxtcəsinə nəfəs almasına səbəb oldu.

Hələ müharibə bitməmişdi, dövlətimizin başçısının tapşırığına əsasən artıq azad edilmiş ərazilərdə bərpa işlərinə start verilmişdi. Hadrut müharibənin ilk ongünlüyündə azad edildiyi üçün burada da müəyyən işlərə başlanılmışdı.

Bu gün isə Hadruta yeni həyat bəxş olunur. Hadrut hadrutluların doğma yurdlarına qayıtmaları üçün hazırlanır. Mayın 5-də dövlətimizin başçısı cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Xocavənd rayonuna səfərləri çərçivəsində gördüklərimiz bunları söyləməyə imkan verir.

## Hadrut qəsəbəsində 360 şagird yerlik məktəb tikilir

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunmuş rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə dağıdılan təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncam və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Hadrutda məktəb binasının tikintisi də bu işlərin tərkib hissəsidir.

Bərpa olunacaq məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək.

## 28 fərdi evdən ibarət ilk yaşayış məhəlləsi

Azad torpaqlarımıza sakinlərinin qayıtması üçün ilkin olaraq evlərin tikilməsi, lazımi şəraitin yaradılması vacib amillərdəndir. Vətən müharibəsində şanlı Qələbə müjdəsini Azərbaycan xalqına çatdıran tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev deyirdi: “Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq”.

Dövlətimizin başçısı və birinci xanım Hadrut qəsəbəsində salınacaq ilk yaşayış məhəlləsinin təməlini qoyarkən bu dəyərli fikirləri xatırladıq və həqiqətən də Prezidentimizin nəyi nə zaman, nə vaxt edəcəyini müəyyənləşdirdiyinin bir daha şahidi olduq. Hadruta qayıtmaq üçün hadrutlular üçün salınan məhəllə də artıq qısa zamanda bu arzuların reallaşacağını göstərir. İlk yaşayış məhəlləsi 28 fərdi evdən ibarət olacaq. Tikiləcək evlərin ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olması nəzərdə tutulur. Mənzillərin sahəsi 70-120 kvadratmetr təşkil edəcək.

Qeyd edək ki, Hadrut qəsəbəsində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin tikintisi “PMD Group” MMC tərəfindən aparılır.

## Hadrutda turizmin inkişafı nəzərdə tutulur

Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq aparılacaq.

Xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Ardı Səh. 11

# “Qarabağ” dastanının “Hadrut” boyu









Əvvəli-Səh-10

Yerli əhəmiyyətli memarlıq abidəsi kimi rəsmi olaraq dövlət mühafizəsinə götürülən məbəd kompleksinin ərazisində onlarla qəbir daşı yerləşir. Bununla əlaqədar ərazinin arxeoloji cəhətdən tədqiq edilməsinə ehtiyac yaranıb.

Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi də nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək. Turizm Məlumat Mərkəzi iki hissədən ibarət olacaq. Birinci hissə turistlərin qəbulu sahəsi, ikinci hissə isə turizm işçiləri üçün ofis kimi nəzərdə tutulur.

### Hadrut bir mərkəzdən idarə olunacaq

Hadrut qəsəbəsində həm də inzibati mərkəz tikilir. İnzibati zonanın ümumi sahəsi 4,2 hektardır. Buraya inzibati bina, bələdiyyə binası, mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binaları daxildir ki, bu da Hadrut qəsəbə sakinlərinin yaranacaq hər hansı bir probleminin vaxt itirmədən həllinə xidmət edəcək.

Qəsəbənin inzibati ərazisinə bütün yol infrastrukturunun, kommunikasiya xətlərinin, o cümlədən işıq, rabitə və yüksəksürətli internetin çəkilməsi planlaşdırılır. Yol və kommunikasiya xətlərinin ümumi uzunluğu 1100 metr olacaq. Hadrut qəsəbəsinin inzibati ərazisinin tikintisinin 2024-cü ilin martında başa çatdırılması planlaşdırılır.

### Şükürbəyli-Cəbrayıl-Hadrutdan 20-yə yaxın yaşayış məntəqəsinə şaxələnən yollar

Torpaqlarımız kimi, onları bir-biri ilə birləşdirən yollar da 30 ilə yaxın idi ki, doğmalarının addım səslərini gözləyirdi. Dağıdılmış, məhv edilmiş cığırları, itmiş yolları yenidən doğmalarını ocaqlarına daşımaq üçün darıxmışdı sanki...

Yol mədəniyyətdir. Hər hansı yerin inkişafını göstərən birinci amil, başlıca infrastrukturdur. Mayın 5-də dövlətimizin başçısının açılışında iştirak etdiyi Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsi də bölgə üçün xüsusi əhəmiyyətə malikdir. Bu yol Azərbaycan Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamına əsasən inşa olunur.

Uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yolun hərəkət hissəsinin eni 14,5 metr, torpaq yatağının eni isə 21,5 metrdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolun üzərindəki 6 körpünün tikintisi başa çatıb. Yol boyunca 18 avtobus dayanacağı quraşdırılıb.

Yeni avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

### 2021-ci ildə təməli qoyuldu, 2023-cü ildə istifadəyə verildi

“Hadrut” qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 9-da-Hadrutun işğaldan azad olunduğu gün Prezident İlham Əliyev tərəfindən qoyulmuşdu, mayın 5-də isə dövlətimizin başçısının iştirakı ilə istifadəyə verildi.

“Şükürbəyli”, “Hadrut” və “Şuşa” yarımstansiyaları arasında yaradılan 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan 35/0,4 kV-luq 2x1600 kVA gücündə yeni “Hadrut” qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun






elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək.

Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Zərurət yaranarsa, “Hadrut” qovşaq yarımstansiyası vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq.

İşğaldan azad edilmiş ərazilərdə Yaşıl enerji mənbələrinin (işlək günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib edilib, həm personalın, həm də gələcəkdə fəal istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub.

### Hadrut yeni həyatın astanasında

Bütün bunları seyr etdikcə ürəyimiz dağa dönür. Hansı ki, ürəyimizə 30 il dağ çəkilmişdi. Düşmən ərazilərimizdə daşı daş üstündə qoymamışdı. Tariximizin, mədəniyyətimizin məhvi üçün min bir oyuna, xəyanətə əl atmışdı. Bu baxımdan azad edilən torpaqlarımızın hər birində gördüklərimizi böyük sevinc və xoşbəxtliklə qarşılayırıq. Yeni həyatın astanasında olan Hadrut kimi...

Budur, Hadrutun üzü gülür. Onu azad edən ordunun müzəffər sərkərdəsi bu gün də qədim yurd yerinin bərpasını, yaxın gələcəkdə sakinlərinin ona qovuşmasını təmin edir.

Baxdıqca qürur duyuruq. Qürur duyuruq ki, torpağımızın hər bir qarışını sevən, qoruyan, əzizləyən dövlət başçımız var. Axı biz bu torpaqları 90-cı illərdə satanları da görmüşdük. Prezidentimiz onların səhvini düzəltməklə yanaşı, həm də bu xalqın nümayəndələrini öz doğma ocaqlarına qovuşdurmağa, ərazi bütövlüyümüzün təminatına çalışır. Beləliklə də “Qarabağ” dastanının ayrı-ayrı boylarını öz dəst-xətti ilə yazır. Bu işlər asan işlər deyil. Böyük zəhmətin, məsuliyyətin, bacarıq və qabiliyyətin, bir də Vətən sevgisinin bəhrələridir. Bax qüruru da məhz buna görə duyuruq.





# Fələstin-İsrail müharibəsi və dünya nefti

***Hələlik İsrailin Fələstinlə yeni müharibəsi qlobal iqtisadi artımı təhdid etmir. Amma münaqişənin iştirakçılarının siyahısı genişlənərsə və ən böyük neft ixracatçıları buna cəlb olunarsa, vəziyyət dəyişə bilər. 1973-cü ildə "Məhşər günü" adlandırılan müharibə ilk qlobal yanacaq böhranına səbəb olmuşdu. O zaman Qərb ölkələri Yaxın Şərqdən neft tədarükünə embarqo qoydu və neft qiymətləri dörd dəfə artdı.***



Qərb mütəxəssisləri hesab edirlər ki, yeni İsrail-Fələstin münaqişəsi əmtəə qiymətlərinə təsir etmək üçün ciddi potensiala malikdir. Qızıl kimi qoruyucu aktivlərə tələbin artması da mümkündür. Münaqişənin mümkün kəskinləşməsi və genişlənməsi ssenariləri hələlik dünyanın ixrac gəlirlərinin əhəmiyyətli dərəcədə azalması ilə hədələmir.

İsrail Təhlükəsizlik Şurasının üzvləri Qəzza zolağında radikal Fələstin qruplarına qarşı rəsmən müharibə elan edilməsinə səs verib və artıq işğal edilmiş İsrail əraziləri tamamilə XƏMAS qruplaşmalarından geri alınıb. Sonuncu dəfə İsrail hakimiyyəti 1973-cü ildə Ərəb-İsrail müharibəsi zamanı belə bir addım atmışdı. Müharibə İsrailin cənubuna və mərkəzinə raket hücumlarına cavabdır. Bəzi məlumatlara görə, 3 min mərmi İsrailin hava hücumundan müdafiə sistemini yarıb və yük maşınlarında və paraplanlarda onlarla fələstinli yaraqlı Qəzza zolağından İsrailə hücum edib. Şənbə və bazar günləri 700-dən çox dinc sakin, polis və hərbçi həlak olub.

ABŞ prezidenti Cozef Bayden Yaxın Şərq ölkələrini İsrailə hücum cəhdlərinə qarşı xəbərdarlıq edib. "Hazırda İsrailə düşmən olan heç bir tərəf bu vəziyyətdən qazanc əldə etməyə çalışmamalıdır" deyib. Bununla belə, İran hökumətinin nümayəndəsi birmənalı olaraq Fələstin hərəkatını dəstəklədiyini elan edərək qeyd edib ki, "Sionist rejim bu gün həmişəkindən daha həssas görünür". İraq hökumətinin sözçüsü Bassem Əl-Avadi deyib ki, "Fələstin əməliyyatı bu işğal rejiminin onilliklər ərzində bu xalqa qarşı həyata keçirdiyi məqsədyönlü repressiyaların təbii nəticəsidir".

Qərb mediası yazır ki, Baydenin Yaxın Şərqi yenidən qurmaq planı yandırılıb. Bloomberg yazır ki, HƏMAS hücumu ABŞ, Səudiyyə Ərəbistanı və İsrail arasında yaranan ümumi strateji xəttin dağılmasıdır. Bloomberg köşə yazarı Javier Blas məqaləsində qeyd edib ki, tarix təkrarlanmır, lakin tez-tez qafiyələnir. 1973-cü il oktyabrın 17-də başlayan dünyada ilk neft böhranının 50-ci ildönümü ərəfəsində bununla paralellər aparmaq asandır: İsrailə qəfil hücum və neftin qiymətinin artması. Misir və Suriya ilə "Məhşər günü" müharibəsi fonunda OPEK ölkələri daha sonra Qərb ölkələrinə neft tədarükünə embarqo elan etdilər və neftin qiyməti dörd dəfə artdı. Düzdür, ekspert qeyd edir ki, oxşarlıqlar burada sona çatır, çünki indi dünya iqtisadiyyatı bir barel xam neftin qiymətini bir neçə dəfə artıracaq növbəti ərəb neft embarqosundan əziyyət çəkməyəcək.





Blas yazır ki, hazırkı böhran 1973-cü ilin oktyabrının təkrarı deyil, çünki ərəb ölkələri eyni zamanda İsrailə hücum etmirlər. Müəllif təklif edir ki, Misir, İordaniya, Suriya, Səudiyyə Ərəbistanı və digər ərəb dünyası hadisələri formalaşdırmaqdansa, kənardan izləyir. Üstəlik, neft bazarının özündə 1973-cü ildəki xüsusiyyətlərin heç biri yoxdur. Sonra neftə tələbat artdı və dünya bütün ehtiyat istehsal gücünü tükətdi. Və bu gün istehlak artımı yavaşlayıb və elektrik avtomobilləri reallığa çevrildikcə daha da yavaşlayacaq. Bundan əlavə, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin əhəmiyyətli ehtiyat potensialı var ki, onlar bunu seçsələr, qiymətlərə nəzarət etmək üçün istifadə edəcəklər. Rusiya da daxil olmaqla, OPEC+ alyansının üzvləri tərəfindən istehsal və ixraca qoyulan özünü məhdudlaşdırmaları da xatırlaya bilərik.

Blas məmnuniyyətlə qeyd edir ki, bu gün OPEC ölkələri qiymətləri bir neçə əlavə dollardan artıq qaldırmağa çalışmır. "Ər-Riyad neftin qiymətinin 100%-dən çox artırılaraq 200 dollara yüksəldilməsi əvəzinə, hazırda 85 dollardan 100 dollardan bir qədər yuxarı qalxaraq daha 10-20% artmasına sevinər. 1973-cü ildə OPEC ölkələri birtərəfli qaydada neftin rəsmi qiymətini təxminən 70% qaldırdılar ki, bu da embarqo kimi həlledici faktor idi".

Maliyyə Universitetinin və Milli Enerji Təhlükəsizliyi Fondunun (NESF) aparıcı eksperti Stanislav Mitraxoviç isə deyib ki, münaqişə böyüyərsə və Hörmüz boğazında, yaxud digər yerdə daşınma riskləri yaranarsa, neftin qiyməti qalxacaq: "Gərginlik halında, Amerikanın İrana qarşı hərəkətlərini gözləmək olar. Amerikalılar son vaxtlar artımına göz yumduqları İran neftinin ixracına nəzarəti gücləndirə bilər. İndi bu vəziyyət dəyişə bilər, hətta ABŞ-ın bu addımlarına görə neftin qiyməti qalxa bilər".

2022-ci ilin sonundan bəri Vaşinqton Amerika sanksiyalarından yan keçərək İran neftinin ixracına çətin müdaxilələr edib. Nəticədə 2023-cü ildə İranda neft hasilatı təxminən 700 min barel artıb. Qeyd edək ki, İran ABŞ-ın şist neftindən sonra ikinci ən böyük əlavə tədarük mənbəyidir.

"Ağ Ev çox güman ki, indi sanksiyalar tətbiq edəcək. Bu, neftin qiymətini bir barel üçün 100 dollara və bəlkə də daha yüksək səviyyəyə qaldırmaq üçün kifayət edə bilər", - Blas bildirib.

Ekspertlər də qeyd edirlər ki, münaqişənin genişlənməsi və daha çox neft ixrac edən ölkələri ona cəlb etmək riskləri azdır. İsrailin Qəzza zolağında quru əməliyyatı inkişaf etsə və Hizbullah münaqişəyə qoşulsa belə, İsraillə həmsərhəd olan ölkələrin açıq hərbi əməliyyatlara keçməsi ehtimalı azdır və münaqişənin neft hasil edən ərazilərə və ya Süveyş kanalı kimi neftin çatdırılma marşrutlarına təsir göstərməsi şansı daha da azdır. Baxmayaraq ki, indi bəzi yanaşmalar neftin həddindən artıq satıldığını nəzərə alaraq müəyyən edilmiş tendensiyalar çərçivəsində yeni reallıqlar yarada bilər. Neftin qiyməti korreksiyadan sonra da artıq yüksək səviyyədədir və onların daha da artması qlobal tələb və Qərb iqtisadiyyatlarının sabitliyi üçün təhlükəlidir. Ona görə də neft ixrac edən ölkələrin əldə etdiyi gəlirdə hər hansı kəskin hərəkət və buna uyğun olaraq sürətli artım gözləmək olmaz.

Bu münaqişənin necə inkişaf edəcəyini söyləmək hələ tezdir. Bəlkə də bir neçə günə bitəcək, çünki İsraildə bütün cəmiyyət səfərbərlik mənbəyidir və orada çox güclü ordu var. Lakin münaqişə müsəlman və qeyri-müsəlman dünyası arasında sistemli qarşıdurmaya çevrilərsə və inkişaf edərsə, İndoneziyadan Nigeriyaya qədər İsrail və onu dəstəkləyən ölkələrlə qarşıdurma qövsü yarana bilər. O zaman tərəflər bundan çox peşman olacaqlar və Ukrayna münaqişəsi artıq uşaq söhbəti kimi görünəcək.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar da var.***

RAKURS

# Ağır çantalı yüngül uşaqlar

*Ölkəmizdə məktəb yaşı 6-dır. Lakin 1 il öncədən, yəni hələ 5 yaşları olanda artıq məktəbəqədər hazırlıq qruplarına gedən balacalar məktəb çantaları ilə bu vaxt tanış olurlar. Mütəxəssislər xəbərdarlıq edir ki, məktəb çantalarının ağırlığı məktəbə gedən uşaqlar üçün olduqca çoxdur. Belə ağır çantalar uşaqlarda ağır bel-onurğa problemlərinə, "skolyoz" adlandırılan xəstəliyə səbəb olur.*





### Övladınızın çəkisi çantası ilə uyğun gəlirmi?

Skolyoz xəstəliyi insan onurğasının C şəklini alması deməkdir. Skolyoz xəstəliyinin başlanğıcı da məhz kiçik yaşda onurğanın zədə alması, ağırlıq səbəbi ilə boy qısalığı, görünüş problemləri, ağciyər problemləri ilə başlayır.

Uşaqlarda bel ağrılarının ən birinci səbəbi ağır məktəbli çantaları ilə əlaqədardır. Uşağın çəkisinin 10-15 faizindən çox olan məktəb çantasının daşınması bel, çiyin və əllərdə ağrılara səbəb olur. 30 kq çəkisi olan bir uşağın maksimum götürə biləcəyi çanta ağırlığı 5,5 kq olmalıdır. Məktəb dövründə uşaqlar çantalarında kitab-dəftər, ləvazimat – ümumiyyətlə, çoxlu tədris materialları daşımalı olurlar. Üstəlik, hər dərsə əlavə iş dəftərləri, məktəbdən sonra hazırlıq kursları, məşğələləri varsa, çantalara əlavə kitablar, idman ləvazimatları, ayaqqabılar və başqa ləvazimatlar da qoyulur. Bu da məktəbli çantalarının çəkisinin daha da artmasına səbəb olur.

### Qalın qayışlı çanta alın

Ağır çantalardan istifadə etdiyinə görə uşaqlar bu ağırlıqları tarazlaşdırmaq üçün irəliyə doğru əyilir və bu da kürək nahiyəsində kifoz və lordoz dediyimiz deformasiyalara səbəb ola bilər. Ağır çantanın təzyiqindən çiyinlərdə ağrı və çanta asqı-qayışlarının çiyinləri sıxması səbəbi ilə qollarda və əllərdə uyuşma meydana gələ bilər. Ağır məktəb çantaları bel, boyun və çiyin ağrılarına, xroniki yorğunluğa və əzələ spazmlarına səbəb ola bilər. Bu hal da öz növbəsində uşağın məktəbə getmək istəməməsinə və xroniki ağrılardan əziyyət çəkməsinə səbəb ola bilər.

Məktəbli çantası, çantanın ümumi çəkisinə təsir etməmək üçün mümkün qədər yüngül materialdan hazırlanmalı, asqı-qayışları qalın olmalı, qayışın qalın hissəsi isə çiyinə uyğun olaraq tənzimlənməlidir. Beləliklə, çiyinə düşən yük bel tərəfindən də dəstəklənir. Məktəbli çantasının qayışları bərabər məsafədə və hər iki çiyində bərabər səviyyədə olmalıdır.



Bəzən valideynlər uşaqlarının ağır çanta daşımaması üçün təkərli çantalar seçir, lakin təkərli məktəb çantası təkərsiz və tutacaqsız çantadan daha ağır olur. Əgər uşaq məktəbdə pilləkan qalxmalı və enməli olursa çantasını əlinə almalı olur, o zaman təkərli çantaya üstünlük verilməməlidir, çünki bu, əlavə yük yaradacaq.

Uşaqların məktəb çantalarından istifadə edərkən etdikləri səhvlərdən biri də çantanı bir çiynində daşımaqdır. Çantanın qayışlarından yalnız birini istifadə edərək bir çiyində daşınması daha çox yükə səbəb ola bilər və daşındığı tərəfdə daha çox gərginlik yaradır. Bunun qarşısını almaq üçün çantaları hər iki çiyin qayışı ilə tam kürək nahiyəsində daşımaq lazımdır. Bundan əlavə, çantadakı bölmələrdən səmərəli istifadə edilməli və daha ağır kitablar və ya materiallar çantanın arxa hissəsinə yaxın yerləşdirilməlidir ki, çəki paylansın və balanslı çanta yaransın.

### Çanta düzgün seçilməsə...

Məktəbli çantasının asqı və ya qayışlarının uzun və ensiz olması bütün ağırlığın belə yönlənməsinə səbəb olur. Bədənin ağırlıq mərkəzinin arxaya sürüşməsi nəticəsində bel əzələlərində həddindən artıq yükə səbəb olur və ağrı meydana gəlir. Çanta ağır olsa və tək tərəfli çiyin asqısı istifadə edilsə əzələlər çətinlik çəkəcək, xüsusilə boyun bir tərəfə əyiləcək. Bir çiyində daşınan çantalar onurğada sağ və ya sola əyilmələr (skolyoz ) kimi onurğa problemlərinə səbəb ola bilər.

Çantadakı çiyin asqılarının geniş və yumşaq olması çiyində yükün bərabər paylanmasına kömək edir, dar və sərt çiyin asqıları əzələnin müəyyən nöqtələrinə ağırlığın yüklənməsinə səbəb olacaq. Çantanın çiyin asqılarının incə, ensiz, uzun və çantanın ağır olması sinirlərə təzyiq edəcək. Bunun da nəticəsində əl və qola gedən sinirlər zədə alacaq.

Ağır çanta daşıma, yaxud da ağır çantanın tək çiyində daşınması zamanı boyun əzələlərində gərginlik, boyun arxasında ağrı və damar dartılmaları, baş ağrısı yaradacaq. Ağır və qeyri-düzgün şəkildə kürək çantası daşıyan və pillələri qalxıb-enən uşaqlarda ayaq ağrıları daha çox olur.

***Lalə Mehralı***

# "Separatçı canilərin həbsi beynəlxalq hüququn tələbidir"

Azərbaycan ordusu 44 günlük müharibədə göstərdiyi qəhrəmanlıqla BMT Təhlükəsizlik Şurasının qətnamələrini və beynəlxalq hüququ təkbaşına icra etdi. 44 günlük müharibədə qazanılan parlaq qələbə ilə son 30 ildə beynəlxalq hüquq və ədalət bərpa oldu. Sentyabrın 19-da Qarabağdakı qanunsuz erməni hərbi birləşmələrinə və erməni terrorçularına qarşı başlanan və cəmi 23 saat davam edən lokal xarakterli antiterror əməliyyatı ilə proses sona çatdı və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Bu son 31 ilin ən əlamətdar hadisəsidir ki haqq-ədalət bir daha zəfər çaldı və separatçı rejim özünü buraxdı erməni terrorçuları Qarabağdakı keçmiş separatçı rejimin rəhbərləri həbs edildilər. Xüsusən Araik Arutyunyanın həbs edilməsi tarixi ədalətin və beynəlxalq hüququn tələbi və icrasıdır.

Qarabağdakı keçmiş separatçı və quldur rejimin keçmiş başçısı terrorist Araik Harutyunyan və digər separatçılar beynəlxalq qanunlarla ən ağır cinayət hesab edilən hərbi cinayətlər terror əməlləri törədib. Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren ərazilərində hərbi birləşmə terror ocaqları təxribat kəşfiyyat və diversiya qurupları yaratmaq mülki sakinlərin yaşadığı əraziləri və obyektləri bombalamaq mülki sakinləri qətl etmək mina terroru törətmək və bir çox ağır cinayət əməlləri törətmişdir. Artıq Araik Harutyunyan və onunla birgə digər separatçılar və terroristlər yerli və beynəlxalq qanunlara uyğun və müvafiq olaraq mühakimə ediləcək ən ağır şəkildə cəzasını alacaqdır.

Cənab prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti diplomatiya ilə bərabər hərb meydanında da öz sözünü deməkdədir. Cənab İlham Əliyevin uğurlu prinsipial uzaqgörən və praqmatiq siyasəti nəticəsində Azərbaycan ordusu daha da güclənmiş və hazırda Azərbaycan ordusu regionun ən güclü ordusudur. Məhz bunun göstəricisidir ki Azərbaycan ordusu düşmən üzərində son 300 ilin tarixi və parlaq qələbəsini qazanaraq mötəbər bir tarix yazdı.

Bunun nəticəsidir ki artıq bütün Xocalı cəlladları əsgərlərimizin xalqımızın və günahsız dinc sakinlərimizin qanını axıdanlar hər biri həbs ediləcək məsuliyyətə cəlb edilmişdir. Bütün Xocalı canilərinin və xüsusən 2020-ci ilin Vətən müharibəsində Gəncə Bərdə və bir çox bölgələrimizdə mülki insanların yaşadığı ərazilərin bombalanması Azərbaycan ərazillərinin minalanması nəticəsində çox sayda hərbçimizin mülki vətəndaşların ərazilərimizdə xidmət aparan polis əməkdaşlarının çox sayda mülki sakinlərimizin mina terroruna və atəşə tutularaq öldürülməsindən tutmuş mütamadi hərbi təxribatlar terrorlar və milli irqi və dini zəmində ağır hərbi cinayətlər törədərək çox sayda əgərimizin və mülki sakinlərimizin şəhid edilməsində günahkar olan Araik Arutyunyanın və digər Xocalı canilərinin həbs edilməsi son 31 ildə müstəqilik tariximizin qızıl hərflərlə yazılacaq hadisəsidir. Bu hadisə özlüyündə yeni bir mötəbər tarixin və yeni bir mərhələnin başlanğıcı Azərbaycanın tarixi qələbəsinin rəmzidir.



Bununla da bütün mənfur düşmən qüvvələrin ermənilərin bütün havadarlarının məkrli oyunları ermənipərəst dövlətlərin və ermənipərəst mərkəzlərin məkrli planları alt-üst oldu və iflasa uğradı. Fransa və bir çox ermənipərəst avanturist qüvvələrin "for-post"u olan quldur və xunta rejimin rəhbərlərinin və xüsusən hərbi cinayətkar və terrorist Araik Arutyunyanın DTX əməkdaşları tərəfindən yaxalanması artıq Azərbaycanın qələbəsinin kulminasiya nöqtəsidir. Bununla da bir daha bütün mənfur düşmənlərin özlərini bu günə qədər fors-major hesab edənlərin bütün məkrli planları yerlə-yeksan oldu. Başda qalib Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli siyasəti prinsipial və əzmkar mövqeyi uzaqgörən və parlaq siyasəti Azərbaycan dövlətinin gücü və qüdrəti Azərbaycan ordusunun qəhrəmanlığı Azərbaycan təhlükəsizlik və kəşfiyyat orqanlarının çevikliyi bütün mənfur düşmənlərin məkrli siyasətini bundan sonra da alt-üst edəcək. Artıq bütün dünya başa düşməli və Azərbaycana qarşı məkrli planlar quran və anti-kampaniyalar həyata keçirən avanturist qüvvələr anlamalıdır ki bölgənin aparıcı ölkəsi Azərbaycandır hər bir xarici dövlət və hər kəs statusundan və kimliyindən asılı olmayaraq Azərbaycan dövləti ilə bu bölgədə hesablaşmalı və Azərbaycana qarşı forpost qüvvə yaratmaq siyasətindən əbədiyyən əl çəkməlidir. Fransanın ermənilərin oyuncağı olmuş Avropa Parlamentinin və digər ermənipərəst qüvvələrin bölgədə ermənilərin müdafiəçisi qismində görsənib əslində özlərinin qəsbkarlıq talançılıq və imperialist siyasətini həyata keçirtməyə çalışaraq Azərbaycana qarşı mənfur planlar anti-kampaniyalar həyata keçirtməyə çalışması heçbir nəticə verə bilməz. Parisin Avropa Parlamentinin və digər ermənipərəst mərkəzlərin bütün məkrli planları və ermənipərəst siyasəti hər zaman iflasa uğrayacaq.

***Dr. Mirsamir Məmmədov***
***İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyinin Direktoru***

# Əli Kərimli anormal çağırışı ilə ətrafında olanları da bezdirib

***Azərbaycanın sosial-iqtisadi cəhətdən böyük uğurlar əldə etməsi, insanların həyat səviyyəsinin yaxşılaşması, elm, təhsil və digər sahələrdə böyük nailiyyətlər qazanması ölkəmizin Cənubi Qafqaz regionunun şəriksiz lider dövləti olduğunu göstərir. Xüsusilə də, 44 günlük Vətən müharibəsində erməni-terrorçu dəstələrinin başını "Dəmir yumruq"la əzərək ərazi bütövlüyünü bərpa etməsi, sonrakı mərhələdə lokal antiterror xarakterli tədbirlərlə separatizmi sıradan çıxarması və terrorçuları həbs etməsi Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsinə təkan verib.***



Artıq tam əminliklə demək olar ki, əgər dünya siyasətini müəyyənləşdirən 20 dövlət varsa, onlardan biri də Azərbaycan Respublikasıdır. Təbii ki, ölkəmizin uğurlarından dost sevinir, düşmən isə pərişan olub qəm dəryasına qərq olur. Son vaxtlar bəzi yerli və xarici qüvvələrin fəallaşması, ölkəmizə qarşı qarayaxma kampaniyasını, iyrənc böhtanların səsləndirilməsi də, məhz dövlətimizin mütərəqqi uğurlarından pozucu şəbəkənin ciddi narahat olmasından irəli gəlir.

### Dağıdıcı müxalif məxluqları üçün dövlət, millət, xalq məfhumu da yoxdur

Sosial şəbəkələrdə bəzi müxalif mövqeli gənclərin Əli Kərimlinin, Cəmil Həsənlinin, Arif Hacılının tapşırıqlarını yaymaları pozucu qüvvələrin Azərbaycanla bağlı geniş məkrli planlarının olmasından xəbər verir. Sual oluna bilər, niyə daxildəki müxalifət və onların təbliğat maşını Azərbaycana qarşı böhtan kampaniyasının icraçıları rolunda çıxış edirlər? Cavab verilə bilər ki, qrant əldə etmək, maliyyə imkanlarına malik olmaq üçün hədyanlar danışır, mənasız ifadələr səsləndirirlər. Növbəti sual: Pul-para o qədərmi şirin oldu ki, ermənilərlə və ya ermənipərəst qüvvələrlə eyni cərgədə dayanıb, Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı kampaniyanın iştirakçısı olasan? Siyasi ekspertlərin gəldikləri qənaətə və araşdırmalara istinad etsək, yenə də məlum olur ki, müxalifətin dağıdıcı qanadı xarici ağalarından daha çox qrant almaq məqsədilə hər cür yaramaz və əxlaqsız vasitə və üsullardan istifadə etməkdən çəkinmirlər. Fakt budur ki, dağıdıcı müxalif məxluqları üçün dövlət, millət, xalq məfhumu da yoxdur. Onların əsas məqsədi bütün vasitələrlə ölkədə iğtişaşlar törətmək, ictimai-siyasi sabitliyi pozmaqdır. Lakin görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət və onların xaricdəki himayədarları ölkəmizə qarşı ən iyrənc metodları seçmələrinə baxmayaraq, hər nansı formada nəticə əldə edə bilməyəcəklər. Necə ki, yağı düşmən və onlara hərbi, siyasi dəstək verənlər torpaqlarımızı işğal altında saxlaya bilmədilər, nəhayətdə yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz torpaq bütövlüyümüzü bərpa etdi, eləcə də ölkəmizdə sabitliyi pozub milli birliyimizi sarsıtmaq istəyən dağıdıcı müxalifət istəyinə nail ola bilməyəcək. Ən yaxın perspektivdə dağıdıcı müxalifət parçalanaraq tarixin zibilliyinə atılacaq.

ANALİZ

### Əli Kərimli fəaliyyətini düşmənçilik üzərində qurub

Müxalifət düşərgəsində Azərbaycan dövlətçiliyinə qarşı fəaliyyətlərini daha çox düşmənçilik üzərində quran partiya mənsubları arasında AXCP sədri Əli Kərimlinin mövqeyi digərlərindən fərqlənir. O mənada ki, Ə.Kərimlinin əsassız ittihamları ən qatı erməni milliyyətçilərinin ittihamları ilə eyniyyət təşkil edir. Özünü müxalifətin "lideri", "aparıcı siması" kimi təqdim etməyə çalışsa da, əslində, pulahəris, öz şəxsi maraqlarını milli maraqlardan üstün tutan partiya sədridir. Ətrafında olanları zamanı yetişincə zərbə altında qoyub, partiyadan istefa verənləri qorxaq, satqın damğası vurmaqla ləkələməyə çalışıb. Əli Kərimli torpaqlarımızın müdafiəsində heç zaman iştirak etməyib, əksinə, bilərəkdən və ya bilməyərəkdən Qarabağla bağlı məxfi informasiyaların düşmənə çatdırılmasında iştirak edib. Nə özü, nə də övladları Azərbaycan Respublikasının ordusu sıralarında xidmət göstərməyiblər. Bu baxımdan, onun vətənpərvərlikdən geninə-boluna Sevinc Osmanqızının və digər özü kimi düşüncədən kasad şəxslərə verdiyi müsahibələr, açıqlamalar boş və mənasız uydurmalardan başqa bir şey deyil. Həm də Ə.Kərimli bütün çıxışlarında Qarabağ probleminin həllinin müharibə yolu ilə mümkün olmadığını bəyan edirdi. Hətta Azərbaycanın Müzəffər Ordusu Qaragöl istiqamətində mövqelərini möhkəmləndirən zaman, Ermənistanla şərti sərhədləri yaxınlığında yeni postlar qurulan zaman Ə.Kərimli bunun gərəksizliyini vurğulayıb, AXC-Müsavat hakimiyyəti dönəmində daxili qoşunlara rəhbərlik etmiş Fəhmin Hacıyevlə ağız-ağıza verib hay-küy qaldırırdılar. Bütün bunlar bir daha göstərir ki, Ə.Kərimlinin fəaliyyəti ancaq xarici ağalarının sifarişlərinə əsaslanır. Təbii ki, sifarişlər yerinə yetirilən zaman şəxsi istək və maraqların da qrant şəklində nəzərə alınır. Belə xəstə təfəkkürə malik partiya sədrinin siyasi arenda qalmasının özü təhlükə mənbəyidir. Onun sağalması, sağlam təfəkkürdən çıxış etməsi də mümkünsüz görünür. Çünki o, uzun illərdir ki, xəstə düşüncələrini ürəyində, qəlbində yaşadan şəxs olub. Yəni, xəstəliyi canına, qanına, bir sözlə, bütün varlığına hopub. Son vaxtların müəyyən hadisələri təsdiq edir ki, Ə.Kərimli artıq mənasız anormal çağırışı ilə, ətrafında olanları da bezdirib. Partiyadan istefaların son vaxtlar artmasının da, məhz bundan qaynaqlandığı ehtimal olunur. Əminliklə qeyd etmək olar ki, təlatümlü vəziyyətdə olan AXCP yaxın zamanlarda parçalanmalı olacaq. Çünki qeyri-müəyyənlikdən nəinki sıravi üzvlər, eləcə də kollegial orqanlarda təmsil olunanlar da beziblər.

**İ.ƏLİYEV**

# 44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirələri yad olunub



İkinci Fəxri xiyabanda 44 günlük Vətən müharibəsi şəhidləri gizir İslamov Elvin Elçin oğlunun və gizir Qasımov İsmayıl Sadiq oğlunun şəhadətlərinin üçüncü ildönümü münasibətilə məzarları ziyarət olunub.Yasamal rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatı, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, önünə tər güllər düzüb, ruhuna dualar oxuyublar .Şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən İslamov Elvin Elçin oğlu şəhadətindən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə","Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə, Qasımov İsmayıl Sadiq oğlu isə şəhadətindən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları təltif ediliblər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Bizə həkim lazımdır...

FELYETON

***İndi deyəcəksiniz ki, bizim haramız xəstədir ki, həkim lazım ola? Lap tutalım ki, xəstəyik, sənə nə var, özümüz bilərik. Həkimə gedərik də özümüz bilərik, getmərik də. Müalicə olunarıq da özümüz bilərik, olmarıq da. Kim deyir ki, axı biz həkimə getmirik? Bir yerimiz ağrıyan kimi dərhal üz tuturuq həkimə. İndi XII-XV əsr deyil ki, evlərdə həkimsizlikdən ölüb, məhv olaq. Gedirik, sağ olsunlar, bir vərəq dərman yazırlar, hətta aptekin də yerini deyirlər, sağ olsunlar, gətirib edirik. İki-üç günə yaxşılaşırıq. Bir 10-15 gündən sonra əhvalımız yenidən xarablaşır. Yenə gedirik, yenə yazırlar, yenə alırıq, yenə müalicə olunuruq, yenə yaxşılaşırıq. Ta bundan artıq nə olmalıdır ki?***

Həkimdən, xəstədən söz düşmüşkən, qonşumuzda Məmmədəli kişi var. Bu yaxınlarda yaman azarlamışdı. Oğlu da buralarda deyil, xaricdə təhsil alır. Bu kişi çox xəstəxanaya getdi, gəldi. Amma düzəlmədi ki, düzəlmədi. Dedik, ay Məmmədəli əmi, bir yaxşı həkimə görsən də. Gülümsəyib dedi ki, ay bala, həkimin də yaxşısı, pisi var məgər? Həkim elə həkimdir də. Dedik yox, ay Məmmədəli əmi, elə deyil, əlbəttə, həkimin yaxşısı da var, pisi də.



Nəinki həkimin, müəllimin, mühəndisin, fəhlənin də, xülasə, bütün peşə, sənət sahiblərinin yaxşısı da var, pisi də. Məsələn, həkim var ki, gedirsən, gəlirsən, gedirsən, gəlirsən, axırda da ölürsən. Həkim də var ki, 2-3 dəfə müalicəsini alırsan, əvvəlkindən də gümrah olursan.

Müəllim var ki, elm öyrədir, öyrənib adam olursan, müəllim də var ki, heç özü bir şey bilir ki, sənə də nə isə öyrətsin. Mühəndis var ki, işi işdir, mühəndis də var ki, gördüyü iş uçur adamın başına, əcəlini gətirir. Fəhlə ey, hələ. Fəhlə var ki, abad edir, fəhlə də var ki, abadı bərbad edir.

Nə isə. Məmmədəli əmiyə çox dedik, lakin o, az eşitdi. Vəziyyəti də gündəngünə pisləşməyə başladı. Axır ki, oğlu gəlib özünü yetirdi, atasını götürüb özü ilə xaricə apardı. Vallah, orada nə etdilər, etmədilər, kişi qayıtdı, özü də buz baltası kimi.

Deyəsən yenə mətləbdənkənar söhbətlərə qızışıb əsl mətləbi unuduram. Keçim mətləbə. Əslində səhərdən bəri danışdıqlarımın deyəcəklərimə heç dəxli yoxdur, söhbət açıldı, dedim. Amma, vallah, gerçəkdən bizə həkim lazımdır, yaxşı bir həkim. Tək xəstəmizə yox, uşaqlıböyüklü, ağsaqqallı-ağbirçəkli, hamımıza həkim lazımdır. "Nə üçün?",- deyirsiniz. Vallah, deməyin, lazımdır. Bir yaxşı həkim lazımdır ki, deyə ki, ay camaat, xəstələnib mənim yanıma gəlməzdən, hələ bir də məni bəyənib-bəyənməzdən əvvəl baxın, görün nə yeyirsiniz, nə içirsiniz? Necə qidalanırsınız, nə ilə qidalanırsınız?

Sözə bax, heç danışılmalıdır? Camaat nə yemir ki? Yerli məhsullar qalsın bir kənarda. Geni dəyişdirilib xarab olmaq bilməyən, par-par parıldayan kartofu, pomidoru, xiyarı yoxdu, düyüsü, noxudu yoxdu, toyuğu, əti, nə yoxdu bazarlarımızda? Biz də ki, şükür Allaha, nəyə simic olsaq da, yeməyimizə-içməyimizə pul xərcləməkdə əliaçığıq. Gedirik bazara, marketlərə, harada parıldayan, gözəl görünən ərzaq, meyvə-tərəvəz var, onu alırıq. Bir az balacasını, yaraşıqsızını bəyənmirik ki, bəyənmirik. Deyirik ki, niyə biz yaxşısını, bahalısını yeməyik ki? Nə üçün yaşayırıq ki, bu dünyada? Səhərdən axşamadək çalışırıq ki, ucuz məhsul alıb yeyək? Alıb doldururuq çantalarımızı, gətirib yığırıq soyuducuya. Biz niyə nə yemirik ki, bu həkimlər bizə qida məsləhəti verələr?

Hələ şəhərlini qoyuram bir kənara ey. İndi kəndlərimizdə ağacının altına tökülən meyvəni kəndli yığıb doğrayıb verir mal-heyvana. Özü üçün gedib bazarlarda o parıldayan alma-armuddan, şaftalıdan, ərikdən alır. Bəzən düşünür ki, əşi, ta əziyyət çəkib kartof, soğan, tərəvəz əkincə, payız dananı satıb qış tədarükünü edib yığaram başımın altına, yaza çıxaram. Nəyi pisdir ki? Biz özümüzü, görürsünüzmü, necə qoruyuruq, necə qədrimizi bilirik. Bizə həkim, filan lazım deyil. Biz nə yediyimizi də, nə içdiyimizi də yaxşı bilirik.

Vallah, mən qaldım deyəsən həkimlə bu camaatın arasında. Lakin bunların qalmaqalında arada ölsəm də, yenə deyəcəyəm: bizə həkim lazımdır. Ay qardaş, ay bacı, bilirəm hələlik bir yeriniz xəstə deyil, aydındır, öldürməyin məni.

Xəta olmadı ki, 10 oktyabrın Ümumdünya Psixi Sağlamlıq Günü olduğunu xatırladım və düşündüm ki, bizə həkim lazımdır. Mən demirəm ki, xəstəsiniz. Bizim şüurumuzun müalicəyə ehtiyacı var. Bizə terapevt yox, psixoloq lazımdır. Bu sözləri eşidən kimi üzlərdə təbəssüm yarandı... Şükür!

**Mətanət Məmmədova**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Moskva Bakının Qarabağdakı hərəkətlərinə qarışmamaqla Ermənistanı cəzalandırıb"

## Rusiyalı ekspertlərin şərhləri

"Bizdən nə istəyirsiniz?" – Rusiya prezidenti Vladimir Putinin Valday Forumunun plenar iclasındakı çıxışının Ermənistanla münasibətlərdən, xüsusən də Qarabağla bağlı "qədimlərin" hıçqırtılarından bəhs etdiyi hissədəki çıxışının mahiyyətini təxminən belə izah etmək olar. Rusiya lideri açıq-aydın yaxın keçmişə hərtərəfli ekskursiya etdi və müfəssəl təhlil apardı- "Rusiya bizi tərk etdi..." kod adı altında erməni ağlaşmalarına birdəfəlik son qoymaq üçün.



Açığı, bu, həm də İrəvanda Qarabağdakı son hadisələrdən sonra Moskvanı "erməniləri müdafiə etməməkdə" günahlandırmaqda tənbəllik etməyənlərin hamısına cavab idi. Ermənistanın baş nazirinin ardıcıl olaraq bir neçə dəfə etiraf etdiyi Azərbaycanın suveren ərazisindən söhbət getdiyinə inadla məhəl qoymayan hər kəsə. Ümumiyyətlə, bütün bu fəryadlar, şikayətlər, iddialar yəqin ki, Rusiyanı bezdirib, xüsusən də indi Ukraynadakı əməliyyata başı qarışdığı halda.

Rusiyalı ekspertlər Putinin Valdaydakı çıxışı fonunda hazırkı Rusiya-Ermənistan münasibətlərinin necə xarakterizə oluna biləcəyi və Moskvanın erməni siyasətçilərin onlara kömək etmək üçün israrlı çağırışlarına qulaq asıb-eşitməyəcəyi ilə bağlı fikirlərini "Caliber" analitik mərkəzinə bildiriblər. Politoloqların şərhlərini oxucularımıza təqdim edirik.

Siyasi Tədqiqatlar İnstitutunun direktor müavini Daria Qrevtsovanın qeyd etdiyi kimi, Rusiya prezidenti Valday Forumunda Rusiyanın mövqeyini açıq şəkildə ortaya qoyub və təbii ki, Çarlz Mişelin Rusiyanın Ermənistana xəyanət etməsi ilə bağlı bəyanatı ilə razılaşmadığını bildirib.

"Vladimir Putin situasiyaya bu cür baxışı qəbul etmədiyini göstərdi və öz çıxışında Ermənistanın özünün öz yolunu seçdiyini və təbii ki, Rusiyanın bu suveren seçimə müdaxilə edə bilməyəcəyini açıqladı.

Təbii ki, Ermənistan hələ də Rusiyanın müttəfiqidir, orada ölkəmizlə həmrəy olan çoxlu sayda insan var, Rusiya Federasiyasındakı nəhəng erməni diasporunu demirəm, bu da Rusiya cəmiyyəti ilə qırılmaz şəkildə bağlıdır. Ona görə də bizim hələ də əlaqələrimiz var, buna baxmayaraq, İrəvanın bütövlükdə mövqeyinin dəyişməyəcəyi aydındır, çünki baş nazir Paşinyan artıq öz ölkəsi üçün Qərbyönümlü yol seçib. Və o, indi hər şeyi edir ki, Moskvanı İrəvandan uzaqlaşdırsın və Qərbi Ermənistanın müttəfiqinə çevirsin. Görünür, o hesab edir ki, Qərbin ermənilərə kömək etmək üçün daha çox imkanları var",- rusiyalı politoloq hesab edir.

Qrevtsova əmindir ki, Ermənistanın özü Qərb üçün maraqlı deyil, lakin onun Rusiya ilə müttəfiqlik müqavilələrinə daxil olduğunu nəzərə alsaq, Qərb qüvvələri üçün onu Moskvadan qoparmaq, ikinci Ukraynaya çevirmək, Rusiya Federasiyasının Qafqazdakı mövqelərini mümkün qədər zəifləmək son dərəcə vacibdir.



"Son vaxtlar Qərb strukturları Ermənistanı Rusiyaya qarşı qoymaq üçün çox səy göstərir ki, bütün uğursuzluqlarda Moskvanı günahlandırsın. Bu, Rusiyanın ermənilərə dost yox, düşmən olduğunu, hazırda Azərbaycan və Türkiyənin müttəfiqi olduğunu göstərmək üçün onların konkret planıdır. Bu o deməkdir ki, Ermənistan rəhbərliyinin Qərb dövlətləri ilə əməkdaşlıqdan başqa yolu yoxdur. Ümumiyyətlə, Ermənistanda Qərb institutları çoxdan fəaliyyət göstərir və çox fəaldır, Ermənistan vətəndaşlarının şüuruna təsir edən "yumşaq Qərb gücü" işləyir. İrəvanda yaxşı təşkil olunmuş anti-Rusiya mitinqləri və nümayişlərinin Qərbin xüsusi xidmət orqanlarının nümayəndələri tərəfindən hazırlandıqları faktdır. Ona görə də Ermənistan bundan sonra Qərblə müəyyən edilmiş əməkdaşlıq kursunu dəyişməyəcək və Moskva bu faktı reallıq kimi qəbul edir və müvafiq tədbirlər görür", - deyə D.Qrevtsova yekunlaşdırıb.



Politoloq Renat Savinin fikrincə, Putin çıxışı ilə, görünür, həqiqətən də müəyyən xətt çəkmək, Rusiyanın Qarabağa görə hansısa məsuliyyət daşıması ilə bağlı mifləri dağıtmaq və son zamanlar özlərinə Moskvanı ittiham etməyə həddən artıq icazə verən erməni siyasətçilərinin ağzını bağlamaq istəyib.

"İndiyədək Rusiya Ermənistanın təxribatçı siyasətinə, rusları alçaltmaq, təhqir etmək, onları reaksiya verməyə təhrik etmək cəhdlərinə kifayət qədər yumşaq yanaşıb. Məncə, bu mənada Moskva daha sərt davrana bilərdi. Bununla belə, deyə bilərik ki, Rusiya Federasiyası Bakının Qarabağdakı hərəkətlərinə qarışmamaqla artıq Ermənistanı cəzalandırıb. Necə deyərlər, xoşuna gəlmirsə, xoş getdin. Və bu faktın başa düşülməsi erməni revanşistlərini hiddətləndirir, əsas varlıq nöqtəsi "miatsum" və "status" olan bütün müxalifət üçün bunlar uzun illərdir qida çubuqudur.

Mənə elə gəlir ki, Putin bütün ermənilərə çox aydın şəkildə izah etdi ki, Moskva uzun illərdir ki, İrəvanı özünə gəlməyə və ərazilərin qaytarılması ilə bağlı Bakı ilə razılığa gəlməyə dəvət edir, vaxtaşırı Azərbaycanın gündən-günə gücləndiyini qeyd edir. Ermənistan isə ancaq öz mövcud potensialını puç edir. Lakin İrəvan, Putinin açıqladığı kimi, kar və inadkar idi. Beləliklə, Rusiya lideri internetdə bütün erməni siyasi icmasına sadə bir həqiqəti xatırlatdı- "qanun axmaqlar üçün yazılmayıb" və buna görə də ermənilər indi heç kimə arxalanmamalıdırlar. Belə bir mesajın, əlbəttə ki, öz alıcısı var. Düşünürəm ki, o, erməni revanşistlərinin emosional bəyanatlarını ən azı nəzərəçarpacaq dərəcədə sakitləşdirəcək, onların bütün suallarına və qiyabi fəryadlarına cavab verəcək", - deyə R.Savin vurğulayıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
10 oktyabr
2023-cü il

# Pomidor niyə günü-gündən bahalaşır?

***"Öz məhsullarımızın xaricdən gətirilənlərlə eyni qiymətdə, yaxud ondan da baha olmasının bir sıra səbəbləri var. Yəni, bu bir səbəbdən asılı məsələ deyil. Birinci səbəb əlverişsiz hava şəraitidir. Xaricdən Azərbaycana pomidor gətirilmir. Yerli pomidor da açıq sahədə əkildiyinə görə yağışlar dönəmində tarlalardan onu yığmaq mümkün olmur. Bu səbəbdən pomidor qıtlaşır. Qıtlaşma səbəbindən də bahalaşma baş verir.***



### SƏBƏBİ BƏLLİ OLDU

Müşahidə etsəniz bazardakı pomidorların yağışdan sonra çıxan olduğunu görərsiniz. Bunların bəziləri əyri, deformasiyaya uğramış və rəngləri xoşagəlməzdir". Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli deyib.

Onun sözlərinə görə, digər səbəb isə Azərbaycanda ümumiyyətlə pomidor istehsalçıları təmərküzləşir: "Yəni, pomidor istehsal edən fermerlər böyük fermerlərə çevriləcək bir-biri ilə bərabər hərəkət edirlər. Pomidorun həm istehsalında, həm də satışında inhisarçılıq var. Bilirik ki, bir neçə il bundan öncə xeyli istixanalar aradan qaldırıldı. Bu istixanaların sahibləri ya onları kimlərəsə satdı, ya da söküb yerinə bağ hazırladılar".

Akif Nəsirli sözlərinə belə davam edib: "Digər bütün meyvə-tərəvəzlər kimi pomidor da birbaşa Meyvəli bazarına gəlir. Meyvəlidən isə Bakıdakı bazarlara paylanılır. Bu da istənilən qiyməti diqtə etməyə imkan verir. Məsələn, meyvəlidə 2 manat olan pomidor, digər bazarlarda 3.50, yaxud 4 manat olacaq. Çünki rayonda özü pomidor əkən adi fermer öz pomidorunu 8-ci kilometr bazarında birbaşa sata bilmir. O, mütləq pomidoru gətirib Meyvəliyə verməlidir. Yəni, mənbə birdir.

Digər tərəfdən pomidor toxumlarını seleksiya nəticəsində elə formaya salıblar ki, onu adi aqrotexniki qaydalarla becərib yüksək məhsul götürmək mümkün deyil. Yəni, ölkəyə xüsusi pomidor toxumları gətirilir ki, onlardan əmələ gələn pomidorlar xüsusi aqrotexniki qaydalarla yetişməlidir. Bunu da bir qrup fermerlər bilib istifadə edir. Öz təşəbbüsü ilə pomidor əkən fermerləri müxtəlif vasitələrlə sıradan çıxarırlar. Artıq kəndlilər özləri yemək üçün belə pomidoru nadir hallarda əkir. Çünki adi aqrotexniki qulluqla həmin pomidorlar normal məhsul vermir. Onlara xüsusi dərmanlar və yemləmə verilməlidir. Ona görə də kənd təsərrüfatının bu sektorunda çox sürətlə inhisarlaşma gedir. Qiymətin qaldırılıb-endirilməsi də bununla bağlıdır. Yəni, inhisarçı bazara istədiyi qiyməti diqtə edə bilir".

A. Vəli


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Oğlan tələbələrə niyə kirayə ev verilmir?

***Son zamanlar bir sıra sosial şəbəkələrdə mənzil sahiblərinin oğlan tələbələrə ev kirayə verməməsi məsələsi gündəmdədir.***



### EKSPERT AÇIQLADI

Bəs, buna səbəb nədir? Problem nədən qaynaqlanır? SİA mövzu ilə bağlı Əmlak məsələləri üzrə ekspert Elnur Azadovun fikirlərini öyrənib. Onun sözlərinə görə, burada bir çox bəlli səbəblər mövcuddur: "Əvvəla, qrup şəklində oğlanlar mənzilə yığışdıqda bir çox hallarda burada təmizlikdən söhbət gedə bilməz".

Elnur Azadov sözlərinə belə davam edib: "İkincisi, oğlanlar daha çox səs-küy salır və yanlarına gedib-gələn dost-tanışları da çox olur. Tələbat çox olduğu üçün sahibkarlar da evlərini qızlara əmanət etməyə üstünlük verir".

***Ayşən***

# XƏBƏRDARLIQ: COVİD infarkt riskini artırır

Son günlər yoluxma sayında artım müşahidə olunan virusun infarkt və insult riskini artırdığı müəyyən edilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, "Nature Cardiovascular Research" tibb jurnalında dərc edilən araşdırma, COVİD infeksiyasının ürək damarlarını tutmaqla yanaşı, həm də xolesterol lövhələrini və xolesterinlə mübarizə aparan hüceyrələri yoluxdurduğunu və onlardan su anbarı kimi istifadə etdiyini ortaya qoyub. COVİD-19-dan sonra infarkt və insult riskinin yüksək xolesterolu olanlarda 1 ilə qədər davam edə biləcəyi müəyyən edilmişdir.



Elm adamları 2020-ci ilin mayından 2021-ci ilin mayına qədər Nyu-Yorkda COVİD-19-dan dünyasını dəyişən ürək tutması məlum olan 8 yaşlı xəstənin yarılmalarını araşdıraraq bu qənaətə gəliblər. Müəyyən edilmişdir ki, Sars-Cov2 virusu təkcə damarlara təsir etmir, həm də şəkərli diabet, hipertoniya və xolesterin kimi xroniki xəstəlikləri olan xəstələrdə xolesterin lövhələrinə təsir edir, ürək-damar hadisələri (infarkt kimi) və insult riskini təxminən 100 dəfə artırır.

***Səbinə Hüseynli***

# 16 yaşlı futbolçu "Barselona"nın tarixinə düşdü



"Barselona"nın futbolçusu Lamin Yamal La Liqanın tarixinə düşüb. Gənc hücumçu doqquzuncu turda "Qranada" ilə heç-heçə etdikləri (2:2) oyunda qol vurmaqla buna nail olub.

Birinci hissədə rəqib qapısına yol tapan oyunçu La Liqada qol vuran ən gənc oyunçu olub. "Qranada" ilə görüşdə o 16 yaş 87 günlük idi. Bundan əvvəlki rekord 2012-ci ilin avqustunda 16 yaş 98 günlük olarkən "Selta Viqo"ya qol vuran "Malaqa"nın futbolçusu Fabris Olinqaya məxsus idi.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**